AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# RZA XƏLİLOV- 70

BAKI – 2015

**TƏRTİBÇİ:** **Sönməz ABBASLI**
filologiya üzrə fəlsəfə doktoru

**REDAKTOR:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
AMEA Folklor İnstitutunun direktoru,
AMEA-nın müxbir üzvü

**Rza Xəlilov – 70.** Bakı, Elm və təhsil, 2015, 84 səh

folklorinstitutu.com

R 4603000000 Qrifli nəşr
N-098-2015

© Folklor İnstitutu, 2015

# TƏRTİBÇİDƏN

Rza Xəlilova yığıncaqlarda, müzakirələrdə söz verildikdə o, “ bir kaç kəlmə” deyib çıxışına başlayır. Bu gün isə biz onun haqqında danışacağıq. Amma “bir kaç kəlmə” deyil, daha çox...

**8.XII.2014-cü il.**

AMEA-nın Folklor İnstitutunda bir bayram əhval-ruhiyyəsi, gözlərdə sevinc, üzlərdə gülüş var. İnstitutun çox sevdiyi, hörmət etdiyi dəyərli alim Rza Zeynal oğlu Xəlilovun 70 illik yubiley tədbiri keçiriləcək. İnstitutun direktoru Muxtar Kazımoğlunun (İmanovun) təşəbbüsü ilə baş tutacaq ad günü mərasimində iştirak etmək üçün çıxışı olanlar, olmayanlar könüllü şəkildə yubiley məkanına axışırlar. Bu hörməti, bu məhəbbəti zəhmətkeş alim özü qazanıb. 70 illik ömrü çərçivəsində gördüyü, cəfasını çəkdiyi işlərlə, bir də ki, bəlkə də “ideal insan” deyə biləcəyimiz insanlığı ilə.

Bu gün onun günüdür. Bu kitab da bu gündən bir xatirədir. Gözəl alimə kimliyini xatırladan bir xatirə.

Yubiley tədbirində çıxış edə bilməyən, lakin ürəyi sözlə dolu olan həmkarlarımızın da Rza Xəlilova deyəcəyi sözlər var. O sözlər də sizə ünvanlanıb, Rza müəllim! Ürəkdən gələn sözlərlə, maraqlı xatirələrlə sizi baş-başa qoyuruq.

# FİLOLOGİYA ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT RZA XƏLİLOVUN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY TƏDBİRİ

**Muxtar Kazımoğlu:** Hörmətli həmkarlar, əziz dostlar! Bu isti münasibətə görə əvvəlcədən hər birinizə təşəkkür edirəm. Mən çoxdandır ki, bu otaqda, bu kabinetdə belə mehribançılıq görməmişdim. Saat 11 olmamış "Klassik folklor" şöbəsi gəldi və öz məhəbbəti ilə bu otağı isindirdi. Ona görə şöbənin əməkdaşlarına təşəkkür edirəm. Bu mehribanlıq şöbənin Rza müəllimə olan münasibətinin çox gözəl bir göstəricisidir. Rza müəllimlə biz Ədəbiyyat İnstitutunda bir şöbədə işləmişik. Rza müəllim burada şöbə müdiri kimi nə qədər müdrikdirsə, nə qədər insanidirsə, orada da sıravi bir işçi kimi o qədər müdrik, o qədər istedadlı və yüksək intellekt sahibi idi. Rza müəllimin 70 yaşına bir neçə gün qalır. Dekabrın 11-də 70 yaşı tamam olur. Amma Rza müəllimin həm zahiri görkəmindən, həm daxilindən o cavanlıq şövqü getməyib. Arzu edək ki, cavanlıq şövqü həmişə onunla bir yerdə olsun. Rza müəllim bizim tanınmış folklorşünasımızdır, tərcüməçimizdir, pedaqoqumuzdur və ən yaxın dostlarımızdan biridir. Rza müəllim böyük bir məktəbin içindən keçib bura gəlib. Biz Ədəbiyyat İnstitutundan aralandıqca, vaxt keçdikcə, aydın olur ki, ora bizim hamımız üçün bir məktəb olub. Rza müəllim o məktəbdən çox şey götürüb, onun daxilindəki ədəb-ərkan Ədəbiyyat İnstitutundakı ab-hava ilə qaynayıb qarışıb. Rza Xəlilov Təhmasib müəllimin — Məmmədhüseyn Təhmasibin şöbəsində işləyib. Biz Ədəbiyyat İnstitutuna gələndə Təhmasib müəllimi bir az xəstəhal gördük. O xəstəhal kişi son dərəcə dərin bir adam idi. Ədəbiyyat İnstitutu Təhmasib müəllimdən sözün yaxşı mənasında çəkinirdi. Təhmasib müəllimin sözü söz idi, yazısı yazı idi, iclaslardakı çıxışı çıxış idi, qərarı qərar idi. Təhmasib müəllim tək canıynan o dövrdə

Azərbaycan folklorşünaslığının nüfuzunu qaldıran, bəlkə də, bir nömrəli şəxsiyyət idi. Deyim ki, Ədəbiyyat İnstitutundakı koridor söhbətlərində bəzən o şöbəyə müəyyən ironik münasibəti də hiss edirdik. Amma elə ki Təhmasib müəllimin yüksək intellekti ortaya gəlirdi, heç kim o şöbə ilə o səpkidə danışa bilmirdi. Bunu ona görə deyirəm ki, Rza müəllim məhz həmin şöbədən, Təhmasib müəllimin məktəbindən çıxıb Folklor İnstitutuna gəlmiş bizim həmkarlarımızdan, dostlarımızdan biridir. Rza müəllim ixtisas etibarilə ərəbşünasdır. Bizim folklorşünaslığımızda Azərbaycan folklorunun dünya folkloru ilə, ümumiyyətlə, türk folkloru ilə ümumi kontekstdə öyrənilməsinə həmişə ehtiyac olub. Rza müəllim ərəb mədəniyyətini, ərəb dilini, həm də rus dilini çox gözəl bilməyi ilə, müqayisəli folklorşünaslıq sahəsində mühüm addımlar atmağı ilə həmin ehtiyacı müəyyən qədər ödəyə bilib. O, 1989-cu ildə Azərbaycan və ərəb sehrli nağıllarında qəhrəman məsələsindən namizədlik işi yazıb, müdafiə edib. Çox təəssüf ki, Rza müəllim namizədlik işini çap etdirməyib. Biz keçən dəfə Elmi Şurada qərar verdik ki, həmin kitab çap olunsun və bizim Rza müəllimə yubiley hədiyyəmiz olsun. O kitab bir çox baxımdan maraqlı kitabdır. Maraqlıdır, ona görə ki, o kitabda Rza müəllim səyyari, beynəlxalq motiv dediyimiz motivlərə çox böyük həssaslıqla yanaşıb. Materialın özünün diqtə etdiyi şəkildə – məşhur motivlər və süjetlər əsasında Rza müəllim tədqiqatı çox yüksək səviyyədə aparıb. İnşallah  çap edəndən sonra o kitabla ətraflı tanış olmaq imkanı əldə edəcəyik.

Rza müəllimin folklorşünaslıq fəaliyyətinin ən səmərəli tərəflərindən biri onun toplama fəaliyyətidir. Rza müəllim toplamanı tək Şimali Azərbaycanın hüdudları daxilində deyil, onun hüdudlarından kənarda – Dərbənddə də aparıb. Oruc müəllimlə — Oruc Əliyevlə bir yerdə Dərbəndin ayrı-ayrı kəndlərini qarış-

qarış gəziblər, material toplayıblar. Rza müəllim Dərbənd materialları haqqında mətbuatda mütəmadi çıxışlar edib. Azərbaycan elmi ictimaiyyətinə oradakı folklor mühiti haqqında, o mühitin bəzi nəzəri problemləri barədə məlumat verib. Rza müəllimin Oruc müəllimlə bir yerdə Şirvana, konkret desək, Şamaxıya ekspedisiyası mənim yadımdadır. Azərbaycan nağılları seriyasından Şamaxıdan toplanmış nağılların çapı da mənim yadımdadır. O nağıllar bir vaxt mənim baş redaktor olduğum "Yazıçı" nəşriyyatında böyük bir kitab şəklində çap olunub.

Rza müəllimin gördüyü vacib işlər sırasında "İlkin nəşrlər" seriyasını qeyd edə bilərəm. Rza müəllimin ərəb əlifbasını mükəmməl bilməyi bizim karımıza gəlir. Çünki "İlkin nəşrlər" adlandırdığımız kitabların böyük bir qismi XX əsrin əvvəllərində ərəb əlifbası ilə çap olunub. İsrafil müəllimin — İsrafil Abbaslının təşəbbüsü, Rza müəllimin səyi ilə o kitablar işıq üzü gördü. O kitabların çap olunmasının bir çox cəhətdən əhəmiyyəti vardı. Əhəmiyyət ondan ibarətdir ki, biz Azərbaycan folklor kitablarının XX əsrin əvvəllərinə aid tərtib prinsipləri ilə yaxından tanış olduq. Bir çox mübahisəli məsələlərə aydınlıq gətirmiş olduq. Yəni sirr deyil ki, bizim repressiyaya məruz qalmış bir çox folklorşünaslarımızın – Hənəfi Zeynallının, Salman Mümtazın, Əmin Abidin və başqalarının fəaliyyəti ilə bağlı qaranlıq məqamlar vardı. Məsələn, qaranlıq məqamlardan biri budur ki, bir çox hallarda onların gördüyü işlər başqa folklorşünasların adına çıxılıb. O tarixi araşdırmaq, o tarixi yenidən öz yerinə qoymaq missiyası bizim vacib işlərimizdən, vəzifələrimizdən biri idi. O vəzifənin də öhdəsindən gəlməkdə Rza müəllimin çox böyük xidmətləri oldu. "İlkin nəşrlər" seriyasından xeyli miqdarda, səhv eləmirəmsə, ondan artıq kitab çap olunub. O iş indi də davam edir. Rza müəllim təkcə "İlkin nəşrlər"lə məşğul olmur, həm də şöbə əməkdaşlarını işə həvəsləndirir. Hətta elə əmək-

daşları işə həvəsləndirir ki, onların bu İnstitutda fəaliyyəti o qədər də gözə dəyməmişdi. O insanların arxivlərə bağlanmasında Rza müəllimin bir insan, bir alim kimi çox böyük xidməti var. O əməkdaşlarımız ayrı-ayrı arxivlərdən folklor materiallarının üzünü köçürtmək, həmin materialları İnstituta gətirtmək və onların təhlilini aparmaq işi ilə məşğuldurlar. Ümumiyyətlə, arxiv və folklor bizim ən vacib sahələrimizdən, xətlərimizdən biridir. Vaxtilə İsrafil müəllim onu qeyd edirdi ki, Azərbaycan folklorunu üzə çıxarmağın ən vacib məxəzlərindən biri arxivlərdir. O arxivlərdən materiallar hökmən üzə çıxarılmalıdır. Bu sahədə Rza müəllimin çox böyük fəaliyyəti var.

Rza müəllimin tərcüməçilik fəaliyyəti ilə bağlı da bir-iki kəlmə söz demək istəyirəm. O, şərqşünaslıq fakültəsinin ərəb və Azərbaycan filologiyası şöbəsini bitirəndən sonra bir neçə ərəb ölkəsində – Qahirədə, Suriyada, İraqda, Yəməndə tərcüməçilik fəaliyyəti ilə məşğul olub.

Rza müəllimin pedaqoji fəaliyyəti də çox faydalı olub, əhəmiyyətli olub. O, Türkiyənin Atatürk Universitetində dərs deyib.

Rza müəllim haqqında çox danışıb vaxt almaq istəmirəm. Dostlar, həmkarlar danışacaqlar. Amma bir şeyi də demək istəyirəm ki, Rza müəllim həm də tanınmış şair Zeynal Xəlilin ailəsində böyümüş dostumuzdur. Məşhur bir adamın evində böyümək adama bir neçə tərəfdən təsir göstərə bilir. Tanınmış adamın evindən çıxıb adam öz ətrafına yuxarıdan aşağı baxa da bilər, özünü təvazökar, gözü-könlü tox apara da bilər. Bu, ailənin tərbiyəsindən nə qədər asılıdırsa, insanın özündən də bir o qədər asılıdır. Min şükürlər olsun ki, Rza müəllim özünü gözü-könlü tox, son dərəcə təvazökar aparan dostlarımızdandır. Yəni o ailədən çıxmaq Rza müəllimin məsuliyyətini dəfələrlə artırıb. O mənada Rza müəllim öz davranışı ilə, öz mədəniyyəti ilə, öz insanlığı ilə həmişə seçilib, həmişə digərlərinə nümunə olub.

Rza müəllimin bizim çoxumuzdan fərqli olaraq, bir müsbət keyfiyyəti də var. Rza müəllim dostun uğuruna sevinən, nəinki sevinən, sevinc göz yaşı ilə bu uğura münasibətini bildirən dostlarımızdan biridir. Allah Rza müəllimə cansağlığı versin. Həmişə dostlarının arasında olsun. Dostları həmişə indiki kimi onu çox istəsin. Çox təəssüf ki, bizim yerimiz balacadır. Kənardan dostları, Rza müəllimin xətrini istəyənləri çağıra bilməmişik. Mənə elə gəlir ki, məclisin böyüyü, kiçiyi o qədər də fərq eləməz. Əsas odur ki, isti münasibət olsun. Sözümün əvvəlində dediyim kimi, Rza müəllimə isti münasibəti hiss etməmək mümkün deyil.

Mən Dərbənd ekspedisiyası, Şamaxı ekspedisiyası barədə danışanda Oruc müəllimin adını çəkdim. Oruc müəllimlə Rza müəllim Ədəbiyyat İnstitutunda Folklor şöbəsində bir yerdə çalışıblar. O Rza müəllimi məndən də yaxşı tanıyır.

**Oruc Əliyev:** Muxtar müəllim, çox sağ olun. Bugünkü yığıncaq haqqında məlumat verdiniz. Rza müəllim Böyük Vətən müharibəsinin bitməsinə bir il qalmış Bakı şəhərində ziyalı ailəsində anadan olub. Orta məktəbi də Bakı şəhərində bitirib. O, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirib. Bir müddət xaricdə, Ərəbistanda çalışıb. 90-cı illərdə isə Türkiyə Cümhuriyyətinə gedib, orada müəllim kimi fəaliyyət göstərib. Bununla yanaşı, onun əsas fəaliyyəti Ədəbiyyat İnstitutu, Folklor şöbəsi ilə bağlı olub. O, görkəmli folklorşünas Məmmədhüseyn Təhmasibin rəhbərlik etdiyi şöbədə işləyib. Elmi rəhbəri də Məmmədhüseyn müəllim olub. Rza müəllimin elmi fəaliyyəti nağılşünaslıqla bağlıdır. O, 1989-cu ildə namizədlik işini bitirib. Bu işi sonralar da davam etdirib. O, həm də tərcüməçi kimi fəaliyyət göstərib. Mən daha çox onun toplama işi ilə bağlı danışmaq istəyirəm. 80-ci illərdə bir

müşavirə keçirildi. O müşavirədə respublikanın ən görkəmli mütəxəssisləri, alimləri iştirak edirdi. Orada folklorun toplanılması ilə bağlı bir çox fikirlər söyləndi. Məlum oldu ki, uzun müddətdir ki, bu iş kölgədə qalıb. Bu məsələyə xüsusi bir diqqət yetirilməyə başlanmalıdır. Qərara alındı ki, toplama işinə xüsusi fikir verilsin və bu sahədə dönüş yaradılsın. Elmi fəaliyyətlə yanaşı toplama işi başlıca məsələdir. Toplama həmişə diqqət mərkəzində olmalıdır. Məlum olduğu kimi, 30-cu illərdən sonra bu sahədə böyük bir boşluq yaranmışdı. Mübahisəli məsələlər var idi: necə toplamaq lazımdır, haradan toplamaq lazımdır? Bundan sonra bir neçə qrup yaradıldı və belə qərara alındı ki, toplamaya gedərkən əməkdaşlar öz kəndlərinə deyil, fərqli bölgələrə ezam olunsunlar. Bu prinsiplə müəyyən qruplar yaradıldı və ezamiyyətlərə gedildi.

Biz Rza müəllimlə keçən əsrin 80-ci illərində ardıcıl olaraq bir neçə il Dərbənd bölgəsində və Şamaxıda ezamiyyətdə olduq. Həmin bölgələri küçəbəküçə, kəndbəkənd gəzib dolaşdıq, onlarla söyləyici ilə söhbətlər aparıb, xeyli folklor nümunələrini yazıya ala bildik. Həmin nümunələrin bir bölümünün qəzet və jurnallarda çap olunmasına da nail ola bildik. Bunun da gələcək toplama prosesində müsbət nəticəsi olduğunu gördük.

Məlum olduğu kimi, Azərbaycan folklorunun toplanması sahəsində uzun illər ərzində neçə-neçə folklorşünaslar əmək sərf etmiş, xeyli dəyərli işlər görmüşlər. Biz bu zəngin təcrübədən həmişə yararlanmalıyıq. Onu da qeyd edək ki, folklor nümunələrinin toplanması, yazıya alınması, nəşri olduqca məsuliyyətli, ağır bir yaradıcılıq prosesidir. Bu prosesə müxtəlif zamanların baxışları, yanaşmaları da bir qədər fərqli olmuş, bu da ortaya çıxan işlərdə özünü göstərmişdir. Şübhəsiz ki, folklor nümunələrinin toplanması, yazıya alınması zamanı şifahi danışıq dili, hər bir söyləyicinin danışıq tərzi göz-

lənilməli, folklor nümunələri canlı təqdim olunmalıdır. Ancaq bu işdə hazır, şablon çərçivələr müəyyənləşdirmək mümkün deyildir. Hər bir bölgənin folklor nümunələrinin sistemli şəkildə toplanması orijinal nümunələri və məlum nümunələrin variantlarını aşkara çıxarmağa imkan verir.

Onu bir daha yada salım ki, Rza müəllimlə birlikdə onlarla söyləyicidən folklor nümunələrini yazıya almışıq. Qeyd edim ki, yazıya alınan nümunələrdə hər bir söyləyicinin həyatı, yaşayışı, dünyagörüşü, psixologiyası bu və ya digər dərəcədə özünü göstərir. Odur ki, toplayıcı hər bir söyləyiciyə fərdi yanaşmalıdır. Bir faktı yada salmaq istəyirəm. İki nəfər Dərbəndin uzaq kəndlərinin birində iki yaşlı qadın söyləyici ilə söhbət edə-edə ehtiyatla onların söylədiklərini yazıya alırdıq. Bu zaman bizimlə ezamiyyətdə olan üçüncü yoldaşımız içəri daxil olub əlindəki maqnitafonu işə salaraq yüksək tonla bildirdi ki, biz indi Dərbəndin filan kəndindəyik, burada folklor nümunələrini yazıya alırıq. Bunu eşidən kimi həmin qadınlar dedilər: "Biz heç nə bilməz var". Bundan sonra onlardan bir kəlmə də olsun söz ala bilmədik.

Hər bir söyləyici ilə söhbət edərkən müxtəlif mənzərələrlə qarşılaşırdıq. Misal üçün, dərbəndli Sədulla dayı (Məmmədov Sədulla Əsədulla oğlu) danışmağa birbaşa başlamırdı. Bir xeyli danışdıqdan sonra əsas mətləbə gəlib çıxırdı. Bəzən isə söhbətini başlamayıb deyirdi ki, sabah görüşüb söhbət eliyərik. O, danışmağa başlamazdan əvvəl xüsusi hazırlaşırdı. Çox aramla, təmtəraqlı bir tonda söhbət edirdi. Çox ciddi, qətiyyətli bir insan olan Sədulla dayı bəzən birdən bir nağılı danışarkən dayanıb hönkürtü ilə ağlamağa başlayırdı. Bir qədər fasilədən sonra isə yenidən söhbətini təmkinlə davam etdirirdi. Özü də son dərəcə həvəslə aydın bir üslubda danışırdı. Çox maraqlıdır ki, onun danışığında ləhcə çox cüzi şəkildə

özünü büruzə verirdi. (Dediyinə görə o, xeyli müddət Türkmənistanda və Qazaxıstanda yaşamışdı). Sədulla dayıdan fərqli olaraq Pərviz dayı (Kərimov Pərviz) həmişə elə bil hara isə tələsirdi, çox tez-tez danışırdı, son dərəcə baməzə adam idi. Onun söylədiyi nümunələr də elə öz xarakterinə uyğun səslənirdi, özü də o, tamamilə ləhcədə söhbət edirdi.

Tanış olduğumuz maraqlı söyləyicilərdən biri də Dadaş müəllim idi (Dadaşov Dadaş Hacı Soltan oğlu). O, bizə çox köməklik göstərirdi. Bizimlə birlikdə ev-ev gəzib bir çox söyləyicilərlə tanış olmağımıza, söhbət etməyimizə imkan yaradırdı. Dadaş müəllim rus təhsilli idi. Ana dilini də bütün incəliklərinə qədər bilən Dadaş müəllim ləhcədə danışırdı. Çox iti yaddaşa sahib olan Dadaş müəllimin dilindən xeyli inancları yazıya almışıq.

Dərbənddə repertuarını yazıya aldığımız ən maraqlı söyləyicilərdən Niftulla dayını xüsusilə qeyd etmək istəyirəm. Onun dilindən xeyli nümunəni, o cümlədən 4 dastanı yazıya ala bilmişik. Onunla sonralar da əlaqə saxlayırdıq, məktublaşırdıq. Rza müəllim Niftulla dayı ilə axıra kimi əlaqə saxlayırdı, daha sonra isə onun ailəsi ilə əlaqəni kəsməmişdi. Onun bir neçə şeirini çap etdirmişdik. Buna görə çox sevinirdi.

Biz sonra toplama işini Şamaxıda davam etdirdik. Kərimov Əjdər Nemət oğlu, Məmmədova Pərvizə Ağaməmməd qızı, İbadov İbadulla Əhməd oğlu, Əzizov Bəhram Gülməmməd oğlu, Babayev Ağabala Dadaş oğlu, Ağayev Əli Ağamalı oğlu kimi çox maraqlı söyləyicilərdən folklor nümunələrini yazıya ala bildik.

Maraqlı bir hadisəni də yada salmaq istəyirəm. Bir dəfə nurani simalı, yaşlı bir kişini görüb onunla söhbət etməyi qərara aldıq, ancaq ona birdən-birə yaxınlaşmadıq. Onun arxasınca xeyli yol getdik. Yayın isti günlərindən biri idi. O, şəhərin lap ucqarında bir darvazadan içəri keçdi. Biz də həmin qa-

pıya çatdıq. Birdən Rza müəllim üzünü mənə tutub dedi ki, gəl geri qayıdaq. Mən təəccüblə ona baxdım. Belə imkanı niyə əldən verməliyik deyə düşündüm. Görəsən, müxtəlif təbiətli insanlarla dil tapıb, ünsiyyət yaradan Rza müəllim niyə belə eliyir. Dedim ki, o başdan-ayağa folklordur. Rza müəllim daha bir söz demədi, qapını döyüb içəri daxil olduq. Rza müəllimin söhbəti həmin adamla da çox yaxşı alındı.

Bütün bunları yada salmaqla onu demək istəyirəm ki, nəzəri cəhətdən hazırlıqlı olan Rza müəllimin bilik və bacarığı onun toplayıcılıq fəaliyyətində, eləcə də çoxsaylı tərtib işlərində özünü daha aydın şəkildə göstərir. Rza müəllim elmi yığıncaqlarda, müzakirələrdə də maraqlı ideyaları, fikirləri, çıxışları ilə seçilir. O, bu gün yaradıcılığının ən yetkin dövrünə qədəm qoyub. Onu təbrik edir, yaradıcılığında uğurlar arzulayıram.

**Muxtar Kazımoğlu:** Çox sağ olun, Oruc müəllim. Sözü Kamran Əliyevə vermək istəyirəm. Buyurun!

**Kamran Əliyev:** Çox sağ olun. Mən də iş yoldaşlarımıza, həmkarlarımıza böyük diqqətlə, qayğı ilə yanaşmaq işini alqışlayıram. Çox sağ olun ki, belə bir məclisi düzənləmisiniz. Rza müəllim haqqında danışmaq Azərbaycan folklorşünaslığının böyük bir dövrü haqqında danışmaq deməkdir. Sadəcə olaraq, Rza müəllimi folklorun içində olan bir şəxs kimi dəyərləndirməliyik. Yəni, 60-70-ci illərdən üzü bəri Rza müəllimin bu məsələlərlə çox isti əlaqələri olub. Onlar Rza müəllimin həyatında, fəaliyyətində xüsusi rol oynayıbdır.

Akademik Kamal Talıbzadə mənim elmi rəhbərim olub. Mən ondan çox məsələləri öyrənmişəm. Bəlkə də, bir çox insanlar müəyyən dövr keçdikdən sonra öz müəllimləri haqqında az danışırlar, bəlkə də, məndən çox danışırlar. Mən xüsusilə xatırlatmaq istəyirəm ki, Kamal Talıbzadə qeyri-adi elmi rəhbər idi. Təkcə onun elmi rəhbərliyi haqqında bir yaxşı ki-

tab yazmaq olardı. Bəzən o, məni evlərinə dəvət edirdi. Kamal müəllimin xanımı Rəfiqə xanım bizə dərs demişdi, həm də Kamal müəllim tələbə vaxtı diplom müdafiə komissiyasının sədri olmuşdur. Mənə o vaxtdan demişdi ki, aspiranturaya gəl. Aspiranturaya qəbul olandan sonra mən hərdən Kamal müəllimgilə gedirdim. Rza müəllimingilin evi Kamal müəllimgilin evindən bir mərtəbə yuxarıda idi.

Mən Rza müəllimi Ədəbiyyat İnstitutunda işləyəndən sonra tanıdım. Daha doğrusu, Kamal müəllim onu mənə tanıtdı. Hüsü Hacıyev küçəsindəki Yazıçılar evi çox maraqlı bir binadır. Mən Rza müəllimin orada böyüməsi, ziyalıların arasında olması haqqında düşünəndə həmişə fikirləşirdim ki, görəsən, o bina Rza müəllimə nə verib? Bu il avqustun sonlarında istirahətdən qayıdanda televiziyada Zeynal Xəlil haqqında bir verilişə baxdım. Verilişə baxdığımı Rza müəllimə də söylədim. Bu verilişdən sonra Rza müəllim haqqında məndə müəyyən təəssüratlar yarandı. Maraqlısı budur ki, Zeynal Xəlil özü yaradıcılığında folklora bağlı bir şairdir. Mənim diqqətimi bir məsələ cəlb etdi. O, cavanlıqda bir poema yazıb: “Koroğlunun qocalığı”. Bir az sonra bir ssenari yazıb: “Qatır Məmməd”. “Qatır Məmməd” kinosu onun ssenarisi əsasında çəkilib. Bu iki fakt məndə qəribə bir təəssürat yaratdı ki, Rza müəllimin folklora gəlişi təsadüfi deyil. O, şərqşünasdı, onun folklora bağlılığı ailəsindən, nəslindən gəlir. Rza müəllimin folklora gəlməsi heç də elə-belə deyil. Zeynal Xəlilin bir gözəl mahnısı var: “Bu gecə” mahnısı. Hüseynağa Hadıyev oxuyurdu. Çox maraqlı mahnıdır: hər şey var, səma var, dəniz var, ay var, bircə sən yoxsan, əzizim. Çox maraqlı mahnıdır. O qədər təmiz, saf, ülvi bir münasibətdir ki, həqiqətən də, sevdiyinə yazıb. Mən dahi şairimiz Füzuli haqqında düşünürəm. Füzuli məhəbbət şairidir. Gözəl qəzəlləri var. Mən inanmıram ki, Füzuli hər hansı yazdığı şeirində o qədər se-

vib. Sadəcə, məhəbbət haqqında yazıb, monumental yazıb, obraz yaradıb. Amma Zeynal Xəlilin o mahnısında özünün sevgisi var. Çox saf və incədir: “Bircə sən yoxsan əzizim”. Və yaxud: “Kimlər gəldi, kimlər keçdi, bu dünyadan”. O da bunun kimi.

Yeri gəlmişkən, qeyd edim ki, Rza müəllim həyatında kədərli anlar da yaşayıb: bacısı qəflətən vəfat edib. Aşağıdakı misralar rəhmətliyin qəbirüstü yazısına çevrilib:

Hər kəsə sonadək çatmır səadət,
Hamını növbə ilə tapır fəlakət.

Rza müəllimin atasının misralarıdır. “Dədə Qorqud” eposunda Dəli Domrul gedib atasından, anasından can əvəzi istəyir. Amma ata-anası vermir. Müqayisə, bəlkə də, yerinə düşmür, amma Rza müəllimin atası 59 yaşında vəfat etdi və ömrünü Rza müəllimə verdi. Bu gün 70 yaşlı Rza Xəlilov 70 yaşlı Zeynal Xəlildir. Rza müəllimin həyatının bu cür maraqlı tərəfləri var ki, bizim yanımızda işlədiyinə görə onları o qədər də duymuruq, hiss etmirik.

Rza müəllim xaricdə tərcüməçi kimi fəaliyyət göstərib. 60-cı illərdə Misirdə – Qahirədə olub. Rza müəllim orada olanda Əbdül Nasir istefa verib, səhərisi gün xalq yenidən onu hakimiyyətə gətirib. Bu, Rza müəllimin tərcümeyi-halının Misir dövrü ilə bağlıdır. Mən onda uşaq idim, altıncı sinifdə oxuyurdum.

Rza müəllim 70-ci illərin əvvəllərində İraqda olub. Professor Abbas Zamanovun İraqla – prof.Əbdüllətif Bəndəroğlu ilə əlaqələri var idi. Oradan Abbas müəllimə jurnallar göndərirdi. Jurnalların üz qabığında Səddam Hüseynin şəkilləri olardı. Rza müəllim İraqda olanda S.Hüseynin hakimiyyətə gəlməsi ilə orada partiyalar yarandı. Bu, Rza müəllimin tərcümeyi-halının İraq dövrü ilə bağlıdır.

Sovet dövründə SSRİ-nin Yəmənlə əlaqələri genişlənmişdi. Rza müəllim Yəməndə olarkən Əli Abdullah Saleh hə-

min il hakimiyyətə gəlib. Bu, Rza müəllimin tərcümeyi-halının Yəmən dövrü ilə bağlıdır.

90-cı illərdə bizim ziyalılar da müxtəlif yerlərə işləməyə gedirdilər. Rza müəllim 1994-cü ildə Ərzurumda Atatürk Universitetində pedaqoji fəaliyyət göstərib. Ondan bir il əvvəl Süleyman Dəmirəl Türkiyədə hakimiyyətə gəlib. 2000-ci ildə Süleyman Dəmirəl hakimiyyətdən gedəndən sonra Rza müəllim Bakıya qayıdıb (2001). Bu, Rza müəllimin tərcümeyi-halının Türkiyə dövrü ilə bağlıdır.

Mən bunları təsadüf hesab etmirəm. Rza müəllim çox yaxşı tərcüməçi, elm adamı olmaqla bərabər, həm də çox həssas şərqşünasdır.

Rza müəllim əmək fəaliyyətinə M.Axundov kitabxanasında foto-laborant işləməklə başlayıb. Onun ötən əsrin 20-ci illərinin arxiv materiallarına olan marağı məhz həmin əmək fəaliyyəti ilə bağlıdır.

Rza müəllim düşüncə etibarı ilə kifayət qədər intellekt sahibidir. O, çox təmkinlidir. Davranışında hədsiz dərəcədə bir ziyalılıq ifadə olunur. Rza müəllimin düşüncəsinin bu cür olması öz nəslindən irəli gəlir. Rza müəllimin babası papaqçı olub. Atası Zeynal Xəlil də o haqda çox böyük qürurla danışıb. Rza müəllimin əmisi uzun müddət Kənd Təsərrüfatı Naziri olub. Digər bir əmisi İqtisadiyyat Universitetində dekan olub. Atası haqqında sizin kifayət qədər təsəvvürünüz var. Rza müəllimin təmkini onun həm öz ailəsindən – şəcərəsindən, həm də təhsilindən gəlir. Rza müəllimin atası həmişə deyərdi: "Mən Yelizavetpolda doğulmuşam, Kirovabadda yaşamışam, amma Gəncədə vəfat edəcəyəm". Rza müəllimin atası hələ o vaxtlar bu düşüncədə idi.

Rza müəllimlə bir kollektivdə işləmək böyük fəxarətdir. Çox sağ olun.

**Muxtar Kazımoğlu:** Sözü Füzuli Bayata verək.

**Füzuli Bayat:** Hörmətli Elmi Şura üzvləri! Bu gün Folklor İnstitutunun çox sevdiyi, bəlkə də hamının ürəkdən sevdiyi, hörmət etdiyi bir adamın 70 illik yubileyinə toplaşmışıq. Burada çox insanların 60, 70 illiyi ilə bağlı tədbirlərdə iştirak etmişik. Amma könüllü şəkildə, sevərək tədbirə gələn insanları çox az görmüşük. Bu, Rza Xəlilovun ən böyük müvəffəqiyyətlərindən biridir. Rza Xəlilov o qədər təvazökar bir adamdır ki, biz yaşca ondan kiçik olmağımıza baxmayaraq heç bir zaman ona Rza müəllim deməmişik. Həmişə Rza dedik. Bu qədər özünü mütəvazi, təvazökar aparan ikinci bir insana rast gəlmək mümkün deyildir. Mən Folklor İnstitutunda işləyərkən Rza Xəlilovun ən böyük üç – sadəlik, səbrlilik, xeyirxahlıq – keyfiyyətini kəşf etdim. Əgər mütəvazilik, sadəlik bir simvola çevrilsə, o, bunun ən böyük örnəyidir. Çünki bu qədər sadə insanı elm camiyəsində çox az rastlanan bir hadisə kimi qələmə vermək olar. Mən 1990-cı ildə Ədəbiyyat İnstitutunun Folklor şöbəsinə yeni gələndə Rza Xəlilov da yenicə müdafiə etmiş, gənc alim idi. Ərəb nağılları ilə Azərbaycan nağıllarının müqayisəsini aparmışdı. Bəlkə də o, ilk dəfə olaraq ərəb folklorunu Azərbaycan folkloru ilə müqayisə edən şəxslərdən biridir. Əslində ərəblərlə bizim aramızdakı bu folklor yaxınlığını görməmək mümkün deyil. Belə ki, hər iki xalq din etibarilə eyni dinə mənsubdurlar, müsəlmandırlar, yaşayış baxımından da müəyyən yaxınlığımız var və nəhayət, ərəblər savaşçı millətdir, türklər ondan daha da savaşçıdır. Bu bir neçə parametri bir-birinə yaxın olan iki xalqın folklorunu ilk dəfə elmi müstəvidə araşdırmaya gətirən Rza Xəlilov oldu.

Rza Xəlilov o qədər mütəvazi insandır ki, hətta sonrakı işində onları davam etdirmədi. Bəzi insanlar çox bilib az yazırlar. Bəzi insanlar isə fərqlidirlər. Rza Xəlilov çox bilib, çox oxuyub az yazanlardandır. Rza Xəlilov öz biliyini, öz elmini,

elmi təcrübəsini başqaları ilə çox sevə-sevə paylaşan insandır. Buradan da onun xeyirxahlığı ortaya çıxır. Nə bu Folklor İnstitutunda, nə də ondan öncə Ədəbiyyat İnstitutunda heç bir adam deyə bilməz ki, Rza Xəlilova hər hansı bir məsələ ilə bağlı müraciət edib və o, istər elmi baxımdan, istər mənəvi baxımdan, istərsə də digər məsələlərdə ondan öz köməyini əsirgəyib. Heç vaxt əsirgəmiyib. Burada kiçik bir haşiyə çıxıb demək istəyirəm ki, Türkiyənin Ərzurum şəhərində yerləşən Atatürk Universitetində işləyərkən bir azərbaycanlının ora işə qəbul olunması məsələsində Rza Xəlilov həmin şəxsdən daha çox fəallıq göstərdi. O adam dilçi idi, indi Qafqaz Universitetində işləyir. Düzdür, həmin şəxs ona sonradan arxa çevirdi, nankorluq etdi. Amma buna baxmayaraq R.Xəlilov axıra qədər ona öz köməyini, öz izzətini göstərdi. İstər dəhlizdəki söhbətlərdə, istər telefon söhbətlərimizdə bu insanın yalnız xeyirxahlığını hər kəs öz üzərində hiss edə bilər. Rza Xəlilov eyni zamanda bir səbr daşıdır. Səbrin simvolu peyğəmbərlər arasında Həzrət Eyyubdursa, mən deyərdim ki, insanlar içərisində Rzadır. Adam təəccüblənir ki, bu qədər səbr insanda hardandır. Rza Xəlilovu mən hələ indiyə kimi əsəbiləşən, özündən çıxan, nalayiq söz deyən və ya əsəbi şəkildə yalnış bir hərəkət edən görmədim. Görən varsa, söyləsin. Rza bu qədər səbrli bir insandır. Bu üç keyfiyyət – xeyirxahlıq, mütəvazilik və səbr onu insanların gözündə sevdirə bilmişdir. Hər kəs kimisə sevib, kimisə sevməməkdə sərbəstdir. Söhbət Rza Xəlilovdan gedəndə dəfələrlə Folklor İnstitutunda şahidi olmuşuq ki, hamı Rzaya böyük sevgi ilə, böyük diqqətlə yanaşır. Rza bu hörməti, bu sevgini özü qazanmışdır. Rza əslində yeni ədəbiyyata yaxın bir adamdır. Çünki belə bir ailədə doğulmuşdur, belə bir mühitdə böyümüşdür. Həm də o, yazılı ədəbiyyatın, xüsusən yeni

dövrü ilə daha çox məşğul olmuşdur. Amma aldığı təhsil onu ərəblərə bağladısa, çalışdığı, müdafiə etdiyi mövzu da onu folklora bağladı. Yəni Rza özündə yazılı ədəbiyyatı, folkloru və ərəb mədəniyyətini daşıyan bir insandır.

O vaxt 75 min, hazırda 80-90 min tələbəsi olan Atatürk Universitetində çalışarkən tələbələrin xaricdən gələn müəllimlər içərisində ən çox sevdiyi Rza var idi. Mən o zaman Qarsda çalışırdım və bir gün ona qonaq getmişdim. Rza təmənnasız bütün tələbələrə ərəbcə mətnlərin oxunub çevrilməsində və tələbələrin diplom işində, magistratura işində, doktorluq işində, hətta dissertasiyaların yazılmasında təmənnasız kömək edirdi. Türkiyədə müəllimlər tələbələrə qayğı göstərirlər. Amma o qayğının müəyyən bir sərhəddi var. İşdən sonra heç kəs bir müəllimi tutub: Filan şey nə oldu? – deyə bilməz. Əks halda müəllim çox sərt cavab verər və tələbənin buna hüququ çatmaz. Bunu soruşmağa cəsarət etməz. Amma Rza o qədər sadə idi ki, dərsdən sonra tələbələr onun otağına gəlir və müəyyən şeyləri soruşub öyrənirdilər. Dəfələrlə biz onun şahidi olduq ki, oradakı tələbələr nəinki bir gün, iki gün, bir ay, iki ay, hətta aylarla, illərlə Rzanı narahat edib, ərəbcə mətnlərin öyrənilməsini, folklorla bağlı məsələləri ondan soruşurdular.

Bir mühüm məsələyə də toxunum. Rza təkcə orada bir ərəbist kimi tanınmırdı, həm də ədəbiyyatçı, folklorçu və ən yaxşı bir dilçi kimi tanınırdı. Çünki ixtisas etibari ilə ərəbistdir, ərəb dilinin qrammatikasını bilirsə, deməli Azərbaycan dilinin, türk dillərinin qrammatikasını da çox gözəl bilir. O baxımdan Rzanın fəaliyyəti hərtərəfli idi. Necə ki, burada da elədir. Rza ilk dəfə olaraq şəhər folklorunun, Bakı folklorunun toplanması, ərsəyə gətirilməsi və nəşrində çox böyük əməyi olan bir şəxs kimi adı tarixə keçmiş oldu. Rza arxivdəki o materialları toplamaqla Bakı folklorunun, şəhər folklorunun nümunələrinin çap olunmasını

başlatmış oldu. Qısacası, Rzanın həm folklorşünas kimi, folklor elminin bilicisi kimi fəaliyyəti, həm bir ərəbist kimi, həm bir toplayıcı kimi fəaliyyəti, ən əsası insan kimi əvəzsiz olması onu kollektiv içində bu qədər çox sevdirmişdir.

Mən dost kimi dost, insan kimi insan, alim kimi alim Rza Xəlilovu 70 yaşı münasibətilə təbrik edirəm. 70 yaş müdrikliyin zirvəsidir. Rzaya bu zirvədən enməməyi arzu edirəm. İnanıram ki, Rza hələ çox işlər görəcək. Cənab Allahdan arzu edirəm ki, ona uzun ömür və bu ömür içində cansağlığı versin. Rza bizim üçün dəyərli bir insandır. Sağ ol, Rza! 70 yaşın mübarək!

**Muxtar Kazımoğlu:** Çıxış üçün sözü Əfzələddin Əsgərə verək.

**Əfzələddin Əsgər:** Mənim deyəcəyim sözlərin əksəriyyətini dedilər. Hər kəs haqqı olan sözü eşitməlidir. Mən 1982-ci ildə aspiranturaya təzəcə qəbul olanda Rzayla tanış olmuşam. Rza Şərqşünaslıq İnstitutundan gəlmişdi. Mən Rzayla tanış olanda o, artıq Propp, Meletinski, Neklyudov kimi alimlərin əsərləri ilə tanış olmuşdu. Bizim aramızdakı dostluq nağıldan başladı. Mən də Rza da nağılla məşğul olurduq. Nağıl folklorun elə bir janrıdır ki, folklorun qapısı nağıldan başlayır. Kim nağılla içəri girirsə, folklorun hər tərəfini görə bilər. Mən saatlarla Rzayla nağıl haqqında söhbətlər etmişəm. Hətta Ədəbiyyat İnstitutunda yer olmadıqda Tarix İnstitutuna qalxıb söhbətlər edirdik. Mən o söhbətlərimiz prosesində, folkloru o dövrdə öyrəndim. Özü də birdən-birə yox, zərrə-zərrə, günbəgün, aybaay, ilbəil öyrəndim. Bu elə bir prosesdir ki, gərək uzun müddət məşğul olasan.

Burada hamı Rzanın mədəniyyətindən danışdı. Mən Rzayla münasibət quranda özümü həmişə yığışdırmağa çalışıram. Tamamilə, başqa bir tipdə adamın qarşımda olduğunu nəzərə alıram. Rza müəllim haqqında bir xatirə deyəcəyəm.

1998-ci ildə bir nəfər bir yazı gətirdi. Adını çəkmirəm, çoxlarınız onu tanıyırsınız. Bu yazını mənə oxumağa verdilər. Mən Rzadan oxuyub-oxumadığını soruşdum. O, oxuduğunu bildirdi. Mən də yazını götürüb oxudum. Yazını oxuyub qurtardıqdan sonra Rzaya dedim ki, mən buradan bir şey başa düşmədim axı. O vaxtlar xarici nəzəriyyələrin yenicə bizim folklorşünaslığa daxil olduğu vaxtlar idi. Rza dedi ki, mən də bir şey başa düşməmişəm. Amma qorxdum deyəm ki, başa düşməmişəm, deyərlər ki, savadsızdı. Biz Meletinski və digərləri ilə hələ təzəcə tanış olmuşduq. Amma Rza onları artıq mənimsəmişdi.

Allah Rza Xəlilova elə bir xarakter verib ki, kaş bizə də bu xarakterdən verərdi.

Bayaq qeyd etdilər, Rza şərqşünasdı, yəni yazılı ədəbiyyatın içərisindən çıxıb. Üstəlik, şərq ədəbiyyatının içərisindən çıxmış bir insandır. Belə adamlar yazılı ədəbiyyata o qədər bağlanırlar ki, folklora gəlməkləri bir az çətin olur. Biz folklorla məşğul olanda, üst-üstə yığsaq 200 nağıl çap olunmuşdu – 5 cildlik nağıl toplusu və ayrı-ayrı yerlərdə çap olunmuş nağıllar. Bizim topladığımız nağıllar, yəni, Füzuli müəllimin, Muxtar müəllimin, Oruc müəllimin, Rza müəllimin, Vəli müəllimin topladığı nağıllar 300-dən çoxdur. Rza folklora cani-dildən gəlib, cani-dildən öz ömrünü bu yolda qoyub. Allah ona uzun ömür qismət eləsin. Mən tamamilə hiss etmirəm ki, sənin 70 yaşın var. 30 il əvvəl necə görmüşəmsə, indi də eləsən. Allah sənə uzun ömür versin!

**Muxtar Kazımoğlu:** Nailə xanım hər kəs haqqında danışmır. Rza müəllim haqqında ürəklə danışmaq istəyir.

**Nailə Rəhimbəyli:** Əziz həmkarlar, çox hörmətli, dəyərli insan Rza müəllim! Burada sizin haqqınızda, sizin elmi fəaliyyətiniz, əmək fəaliyyətiniz haqqında geniş söhbət açıldı. Maraqlı xatirələr dinlədik. Nə yazıqlar olsun ki, sizi 20-30 il tanımağımla öyünə bilmirəm. Sizi tanıdığım bu 10 il mənə

haqq verir ki, sizin haqqınızda bir neçə kəlmə söz deyim. Hər bir insanın həyatında bəlli bir zamandan sonra bir çevrəsi var. Bu çevrənin içərisində say etibarilə çox az insan var ki, onlar mənə daha yaxındır. Bu insanlarla daim ünsiyyət, bu həyatı onlarla paylaşmaq mənə çox xoşdur. Rza müəllim, bu insanlardan biri sizsiniz. Sizi hər zaman görmək, bir-iki kəlmə maraqlı söhbət etmək nə qədər xoşdur. Sizin haqqınızda söylənilən ziyalılıq, ali insani keyfiyyətlər heç də təsadüfi deyil. "Aşıq Qərib"in ustadnaməsində deyilir:

Bədəy mənzilinə hər at yetişməz,
Nanəcibə öyüd versən götürməz.
Ölənədək nişanəsin itirməz
Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat.

Bəli, Rza müəllim əsilli-nəsilli bir ailədə göz açmışdır. Çox gözəl, mərdi-mərdanə bu həyatı davam etdirir və bu gün də bizim qarşımızda varsınız. Xeyirxah bir insan kimi, ziyalı bir insan kimi qarşımızda varsınız.

Gözəl alim olmaq olar, amma insan olmaq çox çətindir. Əgər bu gözəl keyfiyyətlər sizdə varsa, deməli bu sizin dünəninizdən, nəslinizdən gələn bir xətdir. Hamı sizin haqqınızda çox gözəl düşüncələr paylaşdı. Mən sizə nə arzu edə bilərəm? Nüsrət Kəsəmənlinin də belə bir misrası var. Deyir:

Ayrılığın pəncəsində yaşamadım bircə an da,
Solan çiçək bir də açar, təki insan solmayaydı bu dünyada.

Sizin bu nurlu simanızdan, dərin baxışlarınızdan, təmiz qəlbinizdən sağlıq əksik olmasın. Xoş təbəssüm, xoş əhval-ruhiyyə əskik olmasın. Bir insan kimi varlığınız belə bizlər üçün yetər. Özünüzü bizdən əskik salmayın. Hər zaman ətrafınızda sizi sevən, sizin daim sevdiyiniz insanlar sizin üzərinizdən əskik olmasın. Şöbəmizin adından sizə simvolik bir hədiyyə təqdim edəcəyəm. Saatdır. Bürcünüz deyil. Şir var

üzərində. Amma şir müdriklik rəmzidir. Bu da sizdə var. Lirik həyatınız olsun. Saata, dəqiqələrə varmıyasınız. Allah-Tala hər birimizə bir ömür verib. Onu nə qədər yaşayacağımız bəlli deyil. Sadəcə, bundan sonra yaşayacağınız həyatı gözəl, xoş, sağlıqla keçirəsiniz. (Hədiyyəni təqdim edir).

**Muxtar Kazımoğlu:** Çıxış üçün sözü Ağaverdi Xəlilə verək.

**Ağaverdi Xəlil:** Təşəkkür edirəm. Hörmətli Muxtar müəllim, hörmətli toplantı iştirakçıları! Təbii ki, bu gün biz əlamətdar bir hadisə ilə bağlı yığışmışıq. Çıxış edənlərin söylədiyi fikirlərin hamısı ilə tamamilə şərikəm. Rza müəllim gözəl bir insandır, səmimi bir insandır, təvazökardır. Eyni zamanda, folklor sahəsinə öz xidmətlərini göstərmiş, əmək vermiş adamdır, zəhmətkeşdir. Təvazökarlığın içində bunu büruzə verməsə belə, zəhmətçəkən, çalışan, işləyən alimimizdir. Rza müəllimin fəaliyyəti kifayət qədər genişdir, əhatəlidir, çoxaspektlidir. Eyni zamanda, bu sahələrin hamısında Rza müəllim uğurla fəaliyyət göstəribdir. Onu fərqləndirən əsas cəhət ondan ibarətdir ki, Rza müəllim çox böyük intellekt sahibidir. Rza müəllimin ailədən, kökdən gələn, eyni zamanda özünün illər boyu qazandığı bir intellekti var. Rza Xəlilov folklor sahəsində böyük uğurlara imza atıb. Rza müəllimi çöl folklorçusu, sahə folklorçusu kimi Oruc müəllim səciyyələndirdi. Rza müəllim həm də arxiv folklorçusudur və arxivi gözəl bilən folklorçudur. Onun bir sirrini Kamran müəllim qeyd etdi. Arxivdə işləyib, çalışıb. Rza müəllim Azərbaycanda arxivi bəlkə də ən yaxşı bilən mütəxəssisdir. Nəyin harada olduğunu, xüsusən 20-30-40-cı illərdə nə varsa, dəqiqliklə bilən, adı ilə, yeri ilə bilən canlı bir kataloqdur. Yəni zəngin bir məlumata sahibdir. Burada müəyyən qədər bu xüsusiyyətlərdən bəhs olundu. Rza müəllim öz elmi, ictimai fəaliyyəti ilə yanaşı, daha çox bizim nəzərimizdə gözəl bir insandır. Onun bu keyfiyyəti o

qədər üstündür ki, bu onun digər fəaliyyətlərinə kölgə salır. Biz Rza müəllimi bir gözəl insan kimi sevmişik. O bir fatehdir. Rza müəllim həqiqətən də öz ətrafında, çalışdığı kollektivdə, yaşadığı məhəllədə, binada insanların könlünü fəth edən insandır. O mənada Rza müəllimin xüsusi bir qabiliyyəti var. Bunun da əsasında onun çox dərin səmimiyyəti, təvazökarlığı durur. Bunun sayəsində Rza müəllim kamil insan kimi tanına bilib, qeyri-adi hörmət qazanıb. Rza müəllim bizim üçün çox əziz insandır. Bir vaxtlar S.Rüstəmin 70 yaşı tamam olanda verilişdə dedi ki, 0-ı 7-nin silin yanından. Mən də deyərdim ki, Rza müəllimin yaşındakı 0-ı silək. Elə Rza müəllim 7-dən başlasın, təzədən bir yetmişə qədər gəlsin. Rza müəllim çox mənalı bir ömür yaşayıb. 70-i yelə verməyib, elə-belə də verməyib, elə veribdir. Rza müəllimə cansağlığı, uzun ömür, bundan sonrakı işlərində də bax elə beləcə davam etməsini arzulayıram.

**Muxtar Kazımoğlu:** Növbəti çıxış üçün sözü Əli Şamilə verək.

**Əli Şamil:** Naxçıvanda "Şərq qapısı" qəzetində işləyəndə Bakıya da ildə bir-iki dəfə gəlirdim. Onda çalışırdım ki, Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsinə də baş çəkim. Göyçədə doğulduğumdanmı ya nədənsə folklora meyilli idim.

Jurnalistika fakültəsində oxuduğum illərdə bizi qəzetlərə, radio və televiziyaya, filologiya fakültəsində bir patokda oxuduğumuz tələbələri isə rayonlara folklor, dialekt toplamağa göndərirdilər. Mən rayon qəzetlərinə təcrübəyə göndəriləndə də, kəndimizə gedəndə də folklor nümunələri toplayaraq gətirib bizə şifahi xalq ədəbiyyatından dərs deyən müəllimimiz Vaqif Vəliyevə verirdim.

Naxçıvanda qəzetdə işləyəndə də getdiyim yerlərdən folklor nümunələri toplayırdım. Akademiyanın Folklor şöbə-

sinə gələndə də ən çox Elxan Məmmədli, İsrafil Abbaslı, Mirəli Seyidovla söhbət edərdim. Onda Rza müəllimi də görürdüm. Sakit, öz işi ilə məşğul olan, necə deyərlər başını qaldırıb kənardakılara baxmayan Rza müəllim mənə adamayovuşmaz təsiri bağışlayırdı.

Bakıya köçəndən sonra Folklor İnstitutunda işləyəndə gördüm ki, Rza müəllim necə millətsevər bir insandır. Onunla söhbətlərimiz əsasən 1920-1930-cu illərlə bağlı olur. Rza müəllim əski əlifbanı gözəl bilir və böyük həvəslə arxivlərdə çalışır. XX yüzilin birinci yarısında yaşamış ədəbi simaları, onların yaradıcılığını Rza Xəlilov kimi bilən araşdırıcıları barmaqla saymaq olar.

Rza müəllim səmimi bir insan olmaqla yanaşı faktlara səbir və dözümlə yanaşan araşdırıcıdır. O, burulğanlı 20-30-cu illərdə ədəbi şəxsiyyətlərin bir-birinin əleyhinə yazdıqlarına rast gələndə tez özündən çıxıb əsəbiləşmir. Sakit və səbirlə yazanın şəxsiyyətini, onun dövri mətbuatda çap olunan məqalələrini tapıb oxuyur. Sonra oxuduqlarını dövrün abu-havası ilə müqayisə edərək nəticə çıxarır. Müəlliflərin ziddiyyətli məqalələrini də normal qarşılayır.

Çünki həmin yazılara bugünkü oxucunun, vətəndaşın gözü ilə baxmır. Elə bil ki, məqalənin yazıldığı dövrə enir, həmin zamanın ağrısını-acısını yaşayır.

Bir-birini mətbuatda kəskin tənqid edən, bəzən də qələm dostlarının məhvinə yol açan məqalələr yazanlara haqq qazandırmır. Onları zamana aludə olduqlarına görə qınayır. Bütün bunları əski əlifbadan latın əlifbasına çevirib çapa hazırladığı kitablara yazdığı ön sözlərdə, izah və şərhlərdə də aydın görmək olur.

Mən baxıram ki, 20-ci illərdə bu insanların çoxunu bizim tanıdığımız, hörmət etdiyimiz ən böyük şəxsiyyətlər

millətçi deyib, millətin qaymaqlarını məhv ediblər. Aradan bir az keçəndən sonra onların özü millətçiyə çevriliblər. Adam təəccüb edir ki, necə oldu ki, bu adamlar bu 10-15 ilin içində bu cür dəyişdilər. O adamlardan söhbət düşəndə, adlarını unutduğum şəxsləri yada salanda əlbəttə ki, Rza müəllimə müraciət etməli oluruq. Rza müəllim canlı ensiklopediya kimi həmin məsələlərə aydınlıq gətirir. Və onun məndən üstün cəhəti odur ki, o, çılğınlıq etmir. Çox sakit, mülayim şəkildə hamısının zamana, dövrə uyğun qiymətini verir. Sizə buna görə təşəkkür edirəm. Arzu edirəm ki, o dövrlə bağlı sizin kitabınız çap olunsun, gələcək nəsillər də o dövrü yaxşı anlasınlar.

**Muxtar Kazımoğlu:** İndi isə söz şair Adil Cəmilindir. 60 yaşlı Adil Cəmil 70 yaşlı Rza müəllim haqqında görək nə deyir.

**Adil Cəmil:** Rza müəllim, sizin portretinizi o qədər gözəl cızdılar ki, rəssama heç ehtiyac yoxdur. Mən də bütün deyilənlərə qoşuluram. Rza müəllimə yanaşmada elə maraqlı məqamlar var ki, mən də onlardan danışmaq istəyirəm.

Folklor İnstitutuna gəldiyim vaxtdan Rza müəllimi yaxından tanımışam. Rza müəllimin atasını ondan da əvvəl tanımışam. Bəlkə indi də ondan daha yaxşı tanıyıram. Atanızın şeirləri çox lirik, emosional şeirlərdir. Zeynal Xəlil Azərbaycan ədəbiyyatının çox görkəmli simalarından biridir. Təbii ki, Zeynal Xəlil bütün Azərbaycana, türk dünyasına bəllidir. Bu gün Rza Xəlilovun Folklor İnstitutunda işləməyinin bizim üçün böyük əhəmiyyətini hiss edirəm. Azərbaycanın mənəvi mədəniyyəti deyilən zəngin irsimiz demək olar ki, ərəb əlifbasına bürünüb qalıb. Bu əlifbada hələ də üzə çıxarılası bir çox dəyərlərimiz var ki, bu yöndə sizin çox böyük əməyiniz, xidmətiniz var. Siz həm də gözəl mətn-

şünassınız. Mətnlə işləmək, sözlə davranmaq hər adama nəsib olmayan bir qabiliyyətdir, istedaddır. Mən sizə ağrıyıb-acımamağı arzu edirəm. Yetmişin üstünə bir yetmiş də gəlsin. Təbrik edirəm! Mən sizə bir qələm hədiyyə vermək istəyirəm, qələminiz iti olsun deyə! (Hədiyyəni təqdim edir).

**Muxtar Kazımoğlu:** Son olaraq şöbə adından sözü Afaq Xürrəmqızına verək.

**Afaq Xürrəmqızı:** 10 il öncə Rza müəllimin 60 yaşı tamam olanda onun haqqında kiçik bir yazı yazmışdım. Orada onun tərcüməçilik fəaliyyətini, elmi fəaliyyətini, pedaqoji fəaliyyətini bacardığım qədər işıqlandırmışdım, onu bir alim kimi dəyərləndirmişdim. 2004-cü ildən ötən bu 10 il isə mənə Rza müəllimi bir insan kimi tanımağa imkan verdi. Əvvəla, Rza müəllim bizim üçün bir şöbə müdiri deyil. Qızların adından da deyirəm ki, Rza müəllim bir dostdur. Bütün şöbə işçilərinin dostudur. Çünki biz Rza müəllimə istər maddi, istər mənəvi, istər fiziki problemlərimizi danışıb hər zaman ondan məsləhət, dəstək ala bilərik. Rza müəllim elə bir insandır.

Rza müəllim çox gözəl övladdır. Bu müddət ərzində, bu 10 ildə mənim gördüyüm, hər gün şahidi olduğum o oldu ki, Rza müəllimin anasına qarşı xüsusi bir məhəbbəti var. Atasının xatirəsinə hörməti, anasına məhəbbəti var. Onların arasındakı münasibət elə bil 4 yaşlı oğlan uşağı ilə 20 yaşlı ananın arasındakı münasibətdir. Onların məhəbbəti çox təmiz idi, çox səmimi idi. O, hər gün işə gələndə mənə Zəkiyyə müəllimənin səhhəti haqqında danışırdı.

Rza müəllim çox gözəl ailə başçısıdır. Onun ailəsini tanıyan bir adam kimi deyə bilərəm ki, o, həddindən ziyadə qayğıkeş insandır. İstər həyat yoldaşına, istər qızlarına, istər nəvələrinə qarşı çox qayğıkeş bir adamdır.

Rza müəllim əsl insandır, dostdur. Yəni, hər zaman müraciət edə biləcəyimiz dostdur, insandır. Bir hadisəni deyim. Keçən il mənim atam rəhmətə gedəndə o, mənə çox mənəvi dayaq oldu. Mən işə çıxandan sonra demək olar ki, hər gün işə gələndə o, mənə nə isə gətirirdi. Konfet, mürəbbə, şirniyyat və s. Mən də zarafatla deyirdim ki, Rza müəllim, siz də mənim bu acılı günlərimi şirinləşdirmək istəyirsiniz. Əgər söz ilə deyə bilmirdisə də, hərəkəti ilə, jestlə insanın kefini açmaq istəyirdi.

Rza müəllim elə bir adamdır ki, ona hər hansı bir problemi danışanda, biz unutsaq belə, o gecəni yatmayıb onu düşünür və çıxış yollarını tapır. Rza müəllim adamların problemi ilə yaşayan bir insandır. Rza müəllim əsl insan, əsl dostdur. Rza müəllim haqqında sözümü Nazim Hikmətin ona yaraşan üç misrası ilə bitirmək istəyirəm.

Mən bir insan,
Təpədən dırnağa iman,
Təpədən dırnağa kavğa
Hasret
Ümiddən ibarət
Bir insan!

Şöbə adından sizə hədiyyə təqdim etmək istəyirik.

70 yaşınız mübarək olsun! (Hədiyyə təqdim edilir).

**Muxtar Kazımoğlu:** Əziz dostlar, çox gözəl məclis oldu. Afaq xanımın da çox gözəl çıxışını eşitdik. Biz müdafiələrdə Afaq xanımın quru-quru sənəd oxumağının şahidi olurduq. Amma Afaq xanım, ilk dəfədir ki, bu otaqda belə hərarətlə danışır. Bu hörməti qazanmaq hər adama qismət olmur. Arzu edək ki, bu məhəbbətin üzərinə bir o qədər də məhəbbət gəlsin. Yəqin ki, belə də olacaq, çünki Rza müəl-

lim elə bir insandır ki, onu sevməmək qeyri-mümkündür. Rza Xəlilov insanlara zərif, incə münasibəti ilə, əsəbiləşəndə belə əsəbiliyi büruzə verməmək mədəniyyəti ilə bir örnəkdir. Rza müəllimə yeni yaradıcılıq uğurları, həmişə belə məhəbbətin içində dənizdə üzən kimi üzməyi arzulayıram.

***8 dekabr 2014-cü il***

**Paşa ƏFƏNDİYEV**
**filologiya üzrə elmlər doktoru,**
**professor, əməkdar elm xadimi**

## RZA MÜƏLLİM

Mən onu belə çağırıram. Rza Xəlilovu mən Folklor İnstitutundan tanıyıram. O zaman hələ institut yaranmamışdı. Dədə Qorqud elmi-mədəni mərkəz adlanırdı. O vaxt mən oraya getmirdim. Pedaqoji İnstitutda Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri idim. Kafedrada 6 professor var idi, çətin idarə olunurdu, vaxtım olmadığına görə oraya gedə bilmirdim. Birdən kafedranı mənim əlimdən aldılar. Asudə vaxtım çox oldu. Elə bu zaman böyük alimimiz, mərhum Yaşar Qarayev mənə evə zəng çaldı. Dedi ki, Paşa müəllim xahiş edirəm heç olmasa həftədə bir gün Mərkəzə gedib bir-iki saat oturum. Onda mən sevimli tələbəm Mahmud Allahmanlıya dedim ki, gəl oraya gedək. Getdik, əməkdaşların lap çox gur olduğu otağa daxil olduq. Mədəni mərkəzin direktoru bizim keçmiş tələbəmiz Hüseyn İsmayılov idi. O, bir tərəfdə oturmuşdu, başını qaldırmadan astadan dedi ki, nəhayət Paşa müəllim də gəldi. Mən tez bir zamanda Mədəni mərkəzə isinişdim. Hər həftə beşinci gün saat 10-da gəlib saat 2-3-də gedirdim. Dədə Qorqud mərkəzinin hər bir işində iştirak edirdim. Xüsusilə, Mərkəzin elmi sovetində məsləhətlərimi əsirgəmirdim. Böyük bir konfrans keçirildi, Novruz bayramına həsr olunmuşdu. Mən də məruzəçilərdən biri idim. Məruzənin əlyazmasını məndən aldılar, onun taleyindən xəbərim olmadı. Dissertasiya müdafiəsində yaxından iştirak edirdim. Məsələn, Hüseyn İsmayılovun doktorluq dissertasiyasının müzakirəsində yaxından iştirak etdim. Çıxışım "Dədə Qorqud" jurnalında

çap olundu. Məni professor İsrafil Abbaslının "Azərbaycan folkloru" şöbəsinə götürdülər. Rza Xəlilov da həmin şöbədə idi. Ona görə də biz tez-tez görüşür, folklorumuzun müxtəlif sahələrinə aid problemlərdən söhbət açırdıq. Mən dostum, qardaşım Rza haqqında nə deyə bilərəm. İşgüzar, istiqanlı, mehriban, diqqətli, cəfakeş və sairə onun xüsusiyyətindəki əsas cəhətlər idi.

Bir gün bizim hamımızın müəllimi olan M.H.Təhmasib mənə evə zəng elədi. Dedi ki, Paşa müəllim mən sizə demişdim ki, şöbənizdə ərəb nağılları haqqında dissertasiya hazırlanır. İndi o, hazırdır. Xahiş edirəm onun opponentliyini qəbul edin. Əlbəttə, mən məmnuniyyətlə bu təklifi qəbul elədim. Dissertasiya xoşuma gəldi, yaxşı bir rəy yazıb müəllifi Rza Xəlilova təqdim elədim. Rza müəllim çox uğurla dissertasiyanı müdafiə elədi. Mən birinci opponent idim. İkinci opponent Aida İmamquliyeva idi. O da dissertasiyanı bəyənmişdi, yaxşı təhlil apardı, yüksək qiymətləndirdi. Rza Xəlilovun dissertasiyası folklorşünaslığımızda yeni hadisə idi, orijinal əsər idi. Mən də onu yüksək qiymətləndirmişəm. Sonda belə bir kiçik qeydlə rəyimi tamamlamışdım: Rza Xəlilov özünə tələbkarlıqla yanaşan diqqətli tədqiqatçıdır. Əsər üzərində illərlə işləyib. Dünya folklorşünaslığında bu problemin qoyuluşunu öyrənib. Folklorşünaslığımızda ilk dəfə ərəb və Azərbaycan nağıllarının oxşar, fərqli cəhətlərini aydınlaşdıran, tipoloji yaxınlığı göstərən yaxşı bir əsər yazmışdır.

Folklor İnstitutunda müdafiə şurası yaradılmışdı. Onun sədri Hüseyn İsmayılov, həmsədri də mən, elmi katibi isə Rza Xəlilov idi. Çox səliqə ilə işləri idarə edirdik. Ən çox zəhmət Rza Xəlilovun öhdəsinə düşürdü. Elə oldu ki, Hüseyn müəllim xəstələndi, dissertasiyaların isə çox qızğın müdafiəsi günləri idi. Bütün ağırlıq Rza Xəlilovun və bir də mənim öh-

dəmə düşdü. Rza müəllim çox səliqə, ehtiyatla işləri hazırlayıb Sovetə çıxarırdı, sənədləri çox diqqətlə yoxlayırdı. Müəyyən bir vaxtda biz bu işin öhdəsindən gəldik. Yenə də əsas zəhmət Rza müəllimin üzərinə düşürdü. Onun səliqə və işgüzarlığı bizi çox razı salırdı.

Rza müəllim zəhmətkeş alimdir, əsl folklorşünasdır. Xalq ədəbiyyatı əsərlərinin çox incəliklərini dərk edir və bu nümunələr üzərində müşahidələr aparır. Çox zamanlar Rza müəllim çox dəyərli, alicənab bir işlə məşğuldur. Məlumdur ki, hələ XX əsrin əvvəllərində bizim folklor əsərlərimiz ya mətbuat səhifələrində çıxıb yaxud da kitabça halında işıq üzü görüb. Rza müəllim ərəb dilinin bilicisidir. Özü də ərəb əlifbası ilə ən çətin, mürəkkəb qaynaqları oxuya bilir. Mən bunu onun bir alim, folklorşünas kimi ən əhəmiyyətli cəhətlərindən biri hesab edirəm. Həm XX əsrin əvvəllərindən çap olunan kitablar və həm də 30-cu illərdə repressiyaya uğramış böyük folklorşünaslarımızın kitabları indi nadir nüsxəyə çevrilib. Onları yalnız ayrı-ayrı şəxslərin evlərindən, kitabxanalarından tapmaq mümkündür. Məsələ burasındadır ki, bizim gənc folklorşünaslarımız ərəb əlifbasını oxuya bilmir, onların bu kitablara əli çatmır. Rza müəllim lütflə onları latın qrafikasına çevirib gənclərin ixtiyarına verir. Bu çox alicənab işdir və həm də mən deyərdim ki, xeyriyyəçilikdir. Çünki bizim hamımızın qardaşımız Rza Xəlilov bu işləri tamamilə təmənnasız həyata keçirir. Beləliklə, bizim folklorşünaslıq elmimizi zənginləşdirir. Bu kitabların adlarını mən çəkmirəm, çünki Rzanın həmkarları bu barədə geniş danışacaqlar.

Əzizim Rza, mən heç vaxt düşünməzdim ki, sənin 70 yaşın var. Ulu Tanrı hamımızdan yaxşı görür və kəramətini əsirgəmir. Rza müəllim xüsusilə indiki vaxtda, Azərbaycan xalqının Folklor İnstitutu kimi məbədi olduğu vaxtda şəxsən

sən xalqımıza od və su qədər lazımsan. Mən çox sevinirəm ki, sənin sorağın hazırda həm də bizim milli məbədimiz olan Əlyazmalar İnstitutundan gəlir. Unudulmaq qorxusu olan vaxtilə Azərbaycan xalqının dimağından süzülən əsərlərə yeni, ikinci həyat vermək üçün Sənə cansağlığı, daha böyük enerji, Sənin şəxsiyyətində olan mehribanlığın, işgüzarlığın, qayğıkeşliyin, istiqanlılığın həmişə var olduğunu və daha da zənginləşməsini Ulu Tanrıdan arzu edirəm. 70 yaşın mübarək, əzizim. Səni qucaqlayıram və öpürəm.

Səni çox istəyən və gördüyün səmərəli işlərini qiymətləndirən Paşa müəllim.

***20 dekabr, 2014-cü il***

**Mahmud ALLAHMANLI**
**filologiya üzrə elmlər doktoru, professor,**
**B.Çobanzadə adına Ukrayna respublika**
**mükafatı laureatı**

## FOLKLORŞÜNAS RZA XƏLİLOV

Folklorşünas Rza Zeynal oğlu Xəlilovla bağlı düşüncələrimi bölüşərkən yadıma Platonun elm adamları haqqında dediyi bir fikri gəldi və yazımı da onunla başlamağı qərara aldım. O deyirdi: “Elm sahiblərini elmlərinin çoxluğu ilə deyil, əməllərinin faydalılığı, əxlaqlarının saflığı və işlərinin xeyirxahlığı ilə sınaqdan keçir”. Göründüyü kimi, böyük alim bu düşüncələrində üç istiqaməti, əməl faydalılığı, əxlaq saflığı və iş xeyirxahlığını xüsusi olaraq vurğulayır. Və böyük filosofun yaşadığı zamanın hadisələri müstəvisində diqqət yetirdikdə məsələnin mahiyyəti bir qədər də böyüyür. Bizim bugünkü zamanımızda ehtiyacında olduğumuz və daha çox arzuladığımız da budur. Cəmiyyətin mizan-tərəzisinin pozulduğu, yuxarıdan-aşağıya, aşağıdan-yuxarıya riyakarlıqla dolu olduğu bir vaxtda insanlar çörəkdən, sudan da çox səmimiyyətə, yaxşılığa, sözün həqiqi mənasında böyük olana ehtiyaclıdırlar. On birinci yüzilliyin görkəmli sənətkarı Ə.Yügnəkli “səxa gölünün qaynaqları qurudu, dəniz cəfa ilə coşub daşdı” deyirdi. Hörmətli Rza müəllim, bu gün həmin “səxa gölünün qaynaqlarının quruması, dənizin cəfa ilə coşub daşması” sözün həqiqi mənasında əndazədən çıxmışdır. Ona görə də sizi bir ziyalı kimi təhlil etmədən öncə bir sıra giley-güzarımı, narazılıqlarımı da deməyi zəruri bilirəm. Çünki siz bizim sevimli şairimiz Zeynal Xəlilin oğlusunuz. Varlığınızda gəzdirdiyiniz xeyirxahlıq, insanlara kömək əli uzatmaq istəyi, ümid yerinə çevrilə bilmək duyğusu məni bunları deməyə vadar edir.

Eşitdim bu günlərdə yetmiş yaşınız tamam olmuşdur. Düşüncələrimi və kitabları vərəqlədim. O yetmiş ilin bir parçası qədərində sözümü deməyi qərara aldım. Fikrimcə, yetmiş yaş ağsaqqallıq, müdriklik yaşıdır. Mənə belə gəlir, siz elə erkən yaşlarınızdan, həyatı, dünyanı dərk edən vaxtlarınızdan bu böyüklüyü qazanmısınız. Böyük olaraq ona doğru irəliləmisiniz. Daha doğrusu, içinizdə olan dəyərləri, sevgini, böyük əxlaqı bir keyfiyyət olaraq yerinə qoymusunuz. Bunların daşınışını, Rza müəllim, sizdə bir gen yaddaşı kimi başa düşürəm. Çünki elə insanlar var, o yetmiş yox, yeddi yüz il də yaşasa, yenə çirkablardan, qüsurlardan təmizlənə bilməyəcək. Heç bu ağlına da gəlməyəcək. Beləlləri qocalır, ancaq ağsaqqal ola bilmir. Bütün bunları görəndə və müasir cəmiyyətimizin içərisində yaşayanda düşünürəm ki, nə yaxşı ki, tanrı insanlara iki yüz, üç yüz və daha çox ömür verməyibdir. Onlar insan və insanlıq üçün hansı bəlaları törədərmiş? Bunları fikirləşəndə adam az qalır dəli olsun. Yaxşı ki, siz və sizin kimilər bu dünyada var. Bu gün Azərbaycanda və bütünlükdə dünyada təbiətin, insanlığın ekoloji tarazlığının pozulması prosesi gedir. Hamımız da bu və ya digər dərəcədə onun iştirakçısıyıq. Mənəviyyatın ekologiyasının isə üz tutacağı yerlər var. O siz və sizin kimilərdir.

Rza müəllim, mən sizi səksəninci illərin ortalarından tanıyıram. Səhv eləmirəmsə, 1984-cü ildən. Fərqi yoxdur. Ancaq sizlə tanışlığımın tarixi otuz il və ona yaxındır. Bu az vaxt deyil, xalq dili ilə desək bir igidin ömrüdür. Sizin səmimiyyətinizi, xeyirxahlığınızı, insanlara əl tutmaq, köməklik istəyinizi həmin vaxtlardan görmüşəm və getdikcə daha yaxından yaşamışam. Ətrafınıza münasibəti, sizin qarşınıza çıxana nə qədər səmimiyyət göstərdiyinizi bir yox, bəlkə də yüz dəfələrlə görüb eşitmişəm, canlı şahidi olmuşam. Bu gün məmur özba-

şınalığında cəmiyyət inildəyir, sındırılır, adamlar içindən məhv edilir. Min illər boyu ulularımızın formalaşdırdığı dəyərlər sarsıdılır. İnsanların içini ümidsizlik sarıyır. Ancaq məmləkətimizdə vətən, xalq sevgisi ilə yanıb yaxılan, ömrünü çıraq edən insanlar, ziyalılarımız var. Siz də onların sırasındasınız. XIX əsrin son rübündə və XX əsrin əvvəllərindəki ziyalı ordusu gözlərim önünə gəlir. H.Zərdabi, M.Mahmudbəyov, S.M.Qənizadə, T.Bayraməlibəyov, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, R.Əfəndiyev, S.S.Axundov, Y.V.Çəmənzəminli, A.Səhhət, M.Hadi, A.Şaiq, B.Çobanzadə, Ü.Hacıbəyov, H.Zeynallı, V.Xuluflu, E.Sultanov, M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağayev və onlarla başqaları. Bunlar bizim şərəf, örnək və iftixar tariximizdir. Əməlləri, fəaliyyəti, istəkləri, milli düşüncələri ilə örnəkdir. Sabaha gedən yolumuzu müəyyənləşdiriblər. İndi ən məsuliyyətlisi və əsas olanı bu müəyyənləşmiş yolu şərəflə davam etdirməkdir. Qoy o xalqlar narahat olsunlar ki, keçmişi qaranlıqlarla doludur. Öyrənəcək və öyrəniləcək, üz tutacaq keçmişi yoxdur.

Rza müəllim, siz bir uşaq sevincinə uşaq qədər sevinən, kədərinə uşaq qədər ağrıyan, kövrələn adamlardansınız. Elə o kövrəkliyin dəfələrlə də canlı şahidi olmuşam. Və belə düşünmüşəm ki, siz bir qarışqanın belə xatirinə dəyməyən kəslərdənsiniz. Ürəyiniz ovcunuzun içindədir. Bütün tərəfləri ilə görünür. Bu məsələnin bir tərəfidir. Onun ikinci tərəfində folklorşünas kimi gördükləriniz dayanır.

Folklor və folklorşünaslıq dedim. Fikrimcə, Azərbaycan xalqının, eləcə də türk xalqlarının milli mənəvi mədəniyyətindən böyük sərvəti yoxdur. Bütün olanların, yeraltı, yerüstü maddi sərvətlərin bir sonu olur. Lakin folklor xalqın yol, əxlaq, davranış, milli kimlik yoldaşıdır. Bu gün böyük-böyük binalar tikilir, layihələr həyata keçirilir. Abidələr ucaldılır. Sevinirik.

Bunlar lazımdır və alqışlayırıq. Ancaq ən böyük abidə bir könül ziyarət etmək, bir kimsəsizin əlindən tutmaq, bir aca çörək verməkdir. Xalqımızda bu dəyər göstəricisidir. Və bir ali keyfiyyət olaraq dəftərimizdə, kitabımızda, bizdən əvvəlki nəsillərin əxlaqında, davranışında yaşanır. Aşağılar bunu edirlər. Yuxarılarda bunu axtarmaq çox çətindir. Mənə belə gəlir yuxarıdan bunlar görünmür. Aclıq, səfalət, insanların bir qismət çörək üçün hansı acıları yaşaması unudulubdur. Ona görə də bir məmur qapısına yaxınlaşmaq olmur. Qapılarında açılması mümkün olmayan qalalar qurublar. "Sim-sim"dəkilərə bənzəyir. Özləri haqqında mif yaratmaqla məşğuldurlar. Ancaq mif sınanda görürsən ki, bunlar binəva vətənə nələr etməyiblər. Bunlardan qurtuluşun yolu mənəviyyatda gedən və bəlkə də düşünülmüş şəkildə aparılan eroziyanın qarşısını almaqdır. Bunun isə yenə ağırlığı cəmiyyətin, ziyalının üzərindədir.

Hörmətli Rza müəllim, siz folklorşünassınız və həyatınızın böyük bir hissəsini xalqımızın nəğmə, bayatı, atalar, sözü, əfsanə, rəvayət, nağıl, dastan və s. nümunələrinin toplanması, nəşri və tədqiqinə həsr etmisiniz. Bu gün də həmin yoldasınız. Mənim nəzərimdə bundan böyük şərəf və ləyaqət duyulacaq iş yoxdur. M.F.Axundov yazırdı ki, əsl ləyaqətli, xeyirxah kəslər o kəslərdi ki, bütün hərəkət və davranışlarını vətənpərvərliyə uyğunlaşdırır. Rza müəllim, siz də məhz həyatınızı, folklorşünaslıq sahəsində etdiklərinizi birmənalı olaraq vətənpərvərliyə hesablamısınız. Bu hər kəsə nəsib olmur. Azərbaycan folklorşünaslığı böyük inkişaf yolu keçmişdir. İlk əlyazmadan bugünə qədərki inkişafına nəzər saldıqca ancaq və ancaq için qürur hissi ilə dolur. Bu xalqın nə qədər zəngin folklor mədəniyyəti olduğu bütün tərəfləri ilə aydın nəzərə çarpır. Xalqımız oğuldan-qızdan, atadan-anadan gizlətdiyini nəğmədən, sözdən gizlətməyibdir. Nəyi varsa hamısını nəğ-

mə, bayatı, əfsanə, rəvayət, nağıl və s. formada gələcəyə ötürməyə çalışıblar. Fikrimcə, orta əsrlərin eləcə də ondan qədim dövrün tarixini yazdıran hökmdarların yazdırdığı tarixdən daha dəqiq və aydın tarix xalqın dediklərindədir. Biz bununla salnamələrin, mənbələrin, kitabələrin üzərinə kölgə salmaq istəmirik. Ancaq qənaətlərimizi təbii və doğru tarix anlamında deyirik.

Azərbaycan rusların işğalından sonra əlləşdiyi müstəqilliyə XX əsrin əvvəlində qovuşmuşdu. Lakin bolşeviklərin işğalçı siyasəti cümhuriyyətin müstəqilliyinə son qoydu. Tarix elə gətirdi ki, yenidən əsrin sonunda öz müstəqil dövlətimizi yaratdıq. Mənim üçün son iki yüzillik tarixə baxdıqda bundan böyük uğurumuz yoxdu. Yüz illər, min illər boyu xalqlar özlərinin dövlətini yaratmaq üçün dəridən-qabıqdan çıxıblar, oddan-sudan keçiblər. Nələrə getməyiblər. Ancaq arzu olaraq qalıbdır. Biz isə rus şovinizminin, məkrli düşmənlərin təhdidlərindən çıxıb dövlətimizi qura bildik. Bu, ulu tanrının bizə atasıdır. Məsələ müstəqillik əldə etməklə bitmir, indi əsas olan onu qorumaqdır. Hərə öz işində bu məmləkətə bacardığı qədər xidmət etməklə ölkəmizi çıraqban edə bilərik. Siz bir folklorşünas kimi bu yoldasınız. Ancaq elələri vardır ki, əlindəki səlahiyyət hüquqlarını aşmaqla bu müstəqilliyə nifrət etdirmək yolunu tuturlar. Əmin olmaq lazımdır ki, bu olmayacaqdır.

Müstəqilliyimizin ən böyük uğurlarından biri xalqın mənəvi mədəniyyətinə sahib durmaq duyğusunun aşılanmasıdır. Görülən işlər bunun nümunəsidir. YUNESKO səviyyəsində aşıq sənətinin, muğamatın, Novruz bayramının qiymətləndirilməsi, qeyri-maddi mədəniyyət abidələri siyahısına salınması və s. buna nümunədir. Bundan heç də dəyər etibarı ilə az olmayan AMEA Folklor İnstitutunun yaradılmasıdır. Mənim nəzərimdə bura məbəddir, ocaqdır. Müqəddəs olacaq yerdir.

Orada əvəzsiz işlər gedir. Bəlkə bu gün biz onların lazımı qədər dəyərini verə bilmirik. Ancaq zaman, yaxın onilliklər bu işlərin nə demək olduğunu özü deyəcəkdir. Rza müəllim, folklor yolu atadan oğula olan yoldur. Ənənə və varislik yoludur. Başlanğıcı müqəddəslərin yazıya almaları, mülahizələri ilə qoyulmuşdur. Bura klassiklərimizin əsərlərindəki bəhrələnməni də əlavə etmək olar. Bizə yaxın olan zamanda M.F.Axundov, H.Zərdabi, M.Mahmudbəyov, E.Sultanov, T.Bayraməlibəyov, R.Əfəndiyev, S.Hüseyn, Y.V.Çəmənzəminli, H.Zeynallı, V.Xuluflu, S.Mümtaz, H.Əlizadə və başqaları folklorun öyrənilməsinin yolunu müəyyənləşdirdilər. İndi AMEA-nın Folklor İnstitutu o yolun şərəfli davamçısıdır. Orada xalq ədəbiyyatına ömür həsr edən, can qoyan adamlar var. Siz də onlardan birisiniz. İnstitutun direktoru, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru M.İmanovun yaratdığı mühit ancaq ideallara, xalq, millət sevgisinə köklənibdi. Mənə belə gəlir, maddiyyat, dolanışıq mənasında onların elə də  qazandığı, əldə etdiyi bir şey yoxdur. Müasir cəmiyyətin sıxıntıları, çörək savaşı sanki onlara elə də çatmayıb və bir başqa dünyanın adamlarıdır. Fikrimcə, bunun qaynağı ancaq və ancaq xalq, millət və torpaq sevgisidir. Rza müəllim, o sevgini aşılayanlardan, göyərdənlərdən biri sizsiniz. M.H.Təhmasib, M.Seyidov, Ə.Axundov, V.Vəliyev, M.Həkimov, S.Paşayev, İ.Abbaslı, P.Əfəndiyev, T.Fərzəliyev və başqaları bu yolun işığını yandırdılar. Böyük S.Vurğun "hər qaya parçası, hər məzar daşı, nəsildən-nəsilə bir yadigardır" deyirdi. H.Arif "tütəklə uyuğub, sazla oyanıb, kamanla dil açıb ötdü babalar" söyləyirdi. Onlara bizdən əvvəlkilər sahib durdu və sahib durmağın nümunəsinə çevirdilər. Siz, Rza müəllim, o məktəbin nümayəndəsisiniz.

İndi siz “Klassik folklor” şöbəsinə rəhbərlik edirsiniz. Bir qədər əvvəl həmin şöbənin müdiri sizin və mənim böyük hörmət bəslədiyimiz prof. İ.Abbaslı idi. Allah ona qəni-qəni rəhmət eləsin. Folklora xidmət anlamında onun yeri əlçatmazlıqdı. Mənim üçün İsrafil müəllim nümunə idi. Siz də nümunəsiniz. Demək, Folklor İnstitutunun şərəfli ağırlığının bir hissəsi sizin üzərinizdədir. Tale elə gətirib ki, xeyli vaxtdır birgə çalışırıq və bundan məmnunluq duyuram. İnstituta gələndə ilk olaraq sizi görmək, hal-əhval tutmaq istəyi içimdə yaranır. Bu da təsadüfi deyildir. Əksinə zərurətdi, sizin səmimiyyətinizə, xeyirxahlığınıza, yanaşmalarınıza ehtiyacdır. Bütün həyatım boyu öyrənməyə çalışdım və yenə də sizlərdən, sizin əhatənizdə olanlardan öyrənmədəyəm. Buna görə minnətdaram.

Rza Xəlil oğlu, siz Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmisiniz. Qahirə Universitetində təcrübə keçib (1966-1967) İraq, Suriya, Yəməndə tərcüməçi kimi fəaliyyət göstərmisiniz. Mənə belə gəlir, həmin ölkələrdə də Azərbaycanı, onun mənəvi dəyərlərini ləyaqətlə təmsil etmisiniz. Sizinlə qarşılaşan hər bir kəs əlidolu, böyük ümidlərlə, yaxşılıqlarla qayıdıbdır. Bu həyatınızın və fəaliyyətinizin bir tərəfidir. 1969-cu ildən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Folklor şöbəsində əmək fəaliyyətinə başlamısınız. Düşünürəm bu uzun illər ərzində sizin folklorşünaslığımıza gətirdiyiniz nələrdir. Cavabı birmənalıdır. Çox şey.

R.Xəlilov Azərbaycan folklorşünaslığında tipoloji araşdırmalara üstünlük verən tədqiqatçılarımızdandır. Azərbaycan və ərəb nağıllarının müqayisəli təhlili, özü də sehrli nağıllar əsasında qəhrəman obrazlarının öyrənilməsi ciddi, həm də kifayət qədər maraq doğuracaq problemdir. Həmin araşdırmalar son olaraq bu istiqamətdə dissertasiyanın yaranmasına gətirib çıxardı (1989). Şərq bəşər sivilizasiyası üçün “ana qucağı”

hesab olunmuşdur. Oksford universitetinin professoru vurğulayırdı ki, Şərq bəxşiş verən, Qərb isə bəxşiş alan olmuşdur. Qərb bu bəxşişlərdən bol-bol bəhrələnmişdir. Bu gün əsir olmuş Şərq öz böyük mədəniyyəti ilə Avropanı əsir etmişdir. XVIII əsrin sonu XIX əsrdə yaranan bütün nəzəriyyələrin Şərqə üz tutması məhz bu anlamda təsadüfi deyildir. Sehrli nağılların bu istiqamətdə araşdırılması təsadüfi yox, Şərqi, böyük mədəniyyəti bilməkdən yaranmışdır.

Xalq ədəbiyyatı nümunələrinin toplanması, nəşri sahəsində görülən işlər bir hissədir. Azərbaycanın ayrı-ayrı regionlarına ekspedisiyalar etmək, el ağsaqqallarını, folklor bilicilərini tapıb onların sinəsində gəzdirdikləri folklor örnəklərini yazıya almaq elə də asan iş deyildir. Bu, məsuliyyət, dözüm, sevgi tələb edir. XIX əsrin sonu XX əsrin əvvəlləri və ondan sonra günümüzə qədər aparılan toplamalar bunun nümunəsidir. M.Mahmudbəyov, T.Bayraməlibəyov, E.Sultanov, S.Mümtaz, V.Xuluflu, H.Əlizadə, M.H.Təhmasib və s. bunun canlı nümunəsidir. Bu iş R.Xəlilovun Dərbənd, Quba, Şirvan, Muğan bölgələrinə ekspedisiyalarında, apardığı toplamalarında uğurla davam etdirilir. "Aşıq Əsəd" (Bakı, Elm, 1979), "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (folklor bölməsi), (Bakı, Elm, 1981), "Allah yıxdığı evi qızlar tikər" (O.Əliyevlə birgə), (Bakı, Yazıçı, 1994) kitablar, "Azərbaycan və ərəb sehrli nağıllarında dualist ideyanın əksi" (AŞXƏDT, III kitab, Bakı, Elm, 1977), "Azərbaycan və ərəb nağıllarında müdrik oğlan", ("Azərbaycan folklorşünaslığı məsələləri toplusu", Bakı, 1989), "Azərbaycan və ərəb nağıllarında obrazlar sistemi" ("Şərq filologiyası" toplu, 1993), "Azərbaycan və ərəb nağıllarında dualizm ideyası" ("Milli folklor" jurnalı, 1994, № 3) və s. məqalələr özünün mövzu aktuallığı ilə seçilir.

Hörmətli Rza müəllim, Sizin gördüyünüz böyük işlərdə vurğulayacağım bir məsələ var və fikrimcə, bu daha əsas olandı. "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından etdiklərinizi deyirəm. Folklor İnstitutunun və sizin (folklorşünas İ.Abbaslı, A.Xürrəmqızı ilə birgə) bu istiqamətdə gördükləriniz böyük savab işidir. Xalqın milli-mənəvi mədəniyyətinə sahiblikdən gələn məsələlərdir. Həmin işlərdən bəzilərinin adını sadalayıram: Mirzə Abbaszadə. "Arvad ağısı (bayatı, haxışta, sevgi, laylay, qayınana-gəlin sözləri" (Bakı: Səda, 2004), Bəhlul Behcət. "Sarı Aşığın bayatıları" (Bakı, Səda, 2006), "Bayatılar və manilər" (Bakı, Səda, 2005), "Aşıq Qərib" dastanı" (Bakı, Səda, 2006), "Folklor çələngi" (Bakı, Nurlan, 2008), "Atalar sözü" (Bakı, Səda, 2003), Hənəfi Zeynallı "Azərbaycan türk mahnıları haqqında" (Bakı, Səda, 2004), Hənəfi Zeynallı. "Azərbaycan tapmacaları" (Bakı, Elm və təhsil, 2013), Hənəfi Zeynallı. "Atalar sözü" (Bakı, Elm və təhsil, 2012), "Salman Mümtazın şəxsi fondundan folklor materialları" (Bakı, Nurlan, 2013), Vəli Xuluflu "El aşıqları" (Bakı, Elm və təhsil, 2013), Vəli Xuluflu "Tapmacalar" (Bakı, Nurlan, 2013) və s. Bunlar demək olar XX əsrin əvvəllərində olan nəşrlərdi və yox olmaq təhlükəsi ilə qarşılaşmışdır. Siz onlara təzədən həyat verdiniz. Bizim ziyalılarımızın nə qədər gərəkli işlər görməsini təkrarən folklorşünaslığımıza, ziyalı mühitimizə göstərdiniz. Çünki bu gün elmə böyük bir həqarət var. Heç kəs heç kəsin kitabını oxumaq istəmir. Olanların böyük əksəriyyəti isə şüarçılıqdan o yana getmir. Loyallıq, liberallıq cəmiyyəti içəridən yeyir. Belə vəziyyətdə sizin və sizin kimilərin olması böyük hadisədir. Sizlər xalq sevgisindən yoğurulmuşlarsınız. Uğurlar, yaxşılıqlar Sizə.

**Ramil ƏLİYEV**
**filologiya üzrə elmlər doktoru, professor**

## ƏZİZ DOSTUM RZAYA

Azərbaycan folklorşünaslığında iz qoyan görkəmli alimlərdən biri də Rza Xəlilovdur. Rzanı 90-cı illərin əvvəllərindən tanıyıram. O, öz elmi fəaliyyətinə ərəb və Azərbaycan folkloru sahəsində başlamışdır. Müqayisəli folklor tədqiqatları ilə məşğul olan alimin sonrakı elmi fəaliyyəti Azərbaycan folkloru ilə sıx bağlı olmuşdur.

Rza Xəlilov eyni zamanda 20-ci illər folklorşünaslığının nailiyyətlərinin tanıdılmasında da yaxından iştirak edir. O, hazırda AMEA Folklor İnstitutunun Klassik folklor şöbəsinə müvəffəqiyyətlə rəhbərlik edir. Bu deyilənlər onun elmi şəxsiyyətinin rəqəmlərlə bağlı hissəsidir. Yazmaq olar ki, onlarla kitabı, yüzlərlə məqaləsi çap olunub. Bunlar statistikadır. Statistikadan kənarda bir ayrı Rza Xəlilov da vardır. Asta yerişli, bəzən özünə qapanan, ağırtəbiətli Rza birinci Rzadan fərqlidir. Birinci Rza işgüzar alim tipidir. İkinci Rza mənim dost kimi tanıdığım insandır. Rza şair oğlu olduğuna görə bəlkə bu qədər həssasdır. O, çox səmimi yoldaşdır. Yəqin ki, ondan inciyən bu vaxta qədər olmamışdır, olmayacaq da.

Rzanın asta-asta danışmağı var. Bu cür danışmaq ona yaraşır. Mən onu ayrı cür danışan kimi təsəvvür edə bilmirəm. Rza çox mehribandır, o qədər mehribandır ki, bunun ona xeyiri düşündüyümdən də çoxdur. Əvvəla, bu mehribanlıq onu kollektivə sevdirir. İkincisi, onu dostlarına daha da doğma edir.. Üçüncüsü, onun qədər mehriban insan görməmişəm. Dördüncüsü, beşincisi… Rza üçün əlçatmaz deyil.

Rza çox səmimidir. Rzadakı səmimilik mehribanlığın təzahür formasıdır. Nəhayət, mənim dostum Rza nağıllardakı müdrik qocadır. Ağsaqqallıq onun boyuna biçilmişdir.

Rzanın özünəməxsus iç dünyası vardır. Hamını öz iç dünyasına buraxmaz. Şüşə kimi kövrəkdir. Kimdənsə incidiyini üzə vurmur, o, bağışlayan və rəhmlidir. Zənnimcə, melanxolik olmalıdır. Mən onu bu xasiyyətlərinə görə də bir az Abdulla Şaiqə də bənzədə bilərəm. Mənə görə, XX əsrin əvvəllərinin Abdulla Şaiqi ilə XXI əsrin Rza Xəlilovunu üst-üstə düşən cəhətlər birləşdirir.

Rza 60 ilə 70 arasında nədirsə, 70 ilə 80 arasında da elə olacaq. İndi Rza dağ başında dayanan şahindir. Bu yaş artdıqca – 70, 80 – Koroğlunun yaşla bağlı dediyi sözlər yada düşür.

Rzanın ömür yolu ata, baba, ağsaqqal döngələrindən keçərək sabitləşib. Elə bil pirani qoca kimi folklordan gəlib Folklor İnstitutuna düşüb. Bu piranilik onun sakit ömrünün hələ çox olacağına, bizimlə birlikdə çalışacağına yol açır. Həmişə bu zirvədə qal, dostum Rza. Zirvədən aşağı baxanda illər bizi sıxmır, ona görə ki, mənalı həyat yaşayırsan. Səndən öyrənməli çox şeylər vardır. Sən bildiyini əsirgəyən deyilsən. Mənim əsl insan haqqında düşündüklərimin oxşarısan.

Rza etiraf etməyi bacarır. O, etirafını dostlarına edir. Bir sözlə, mən onu belə görmüşəm, belə tanıyıram, belə də qalacaq.

**Seyfəddin RZASOY**
**filologiya üzrə elmlər doktoru, dosent**

## DÜNYAMIZI BƏZƏYƏN İNSAN

Biz insanlar çox vaxt əldə etdiklərimizi, ümumiyyətlə “etmək” bacarığımızı şəxsi hünərimiz sayırıq. Çox vaxt unuduruq ki, çox şeyə görə ətrafımızdakı insanlara borcluyuq: yaşamağı, yaratmağı onlardan öyrənirik. Bir sözlə – sözün hər mənasında bizi var edən həyat müəllimlərimizdir. Fəlsəfə doktoru, AMEA Folklor İnstitutu Klassik Folklor şöbəsinin müdiri, nağılşünas, şərqşünas və nəhayət, sözün həqiqi mənasında Böyük İnsan Rza müəllim – Rza Zeynal oğlu Xəlilov məhz belə bir həyat müəllimidir.

Həyat müəllimləri bizim məktəb müəllimlərimizdən fərqlənir. Müəllimlik etmək məktəb müəllimlərinin vəzifəsidir: içindən gəlsə də, gəlməsə də. Ancaq həyat müəllimləri elə anadan müəllim doğulurlar. Onlar öz yaşam tərzi ilə başqalarına həyat nümunəsi verirlər.

Rza müəllim haqqında həcmcə nə qədər yazılmasından asılı olmayaraq, bütün yazanlar onun haqqında, əslində, bir kitab yazır. Çünki o, əslində kitab-insandır. Oxunduqca bitməyən, öyrənildikcə tükənməyən kitab.

Onun ömrü sözün hərfi mənasında mənim gözlərimin qarşısında yaşanır: işlədiyimiz otaqların qapıları üzbəüzdür. Hər səhər onu görmək, arada stolunun üstündə olan dadlı xurmalardan “xüms-zəkat” adı altında dadmaq bir zövqü-səfadır.

Rza müəllimin koridordakı seyfin yanına çəkilib bir siqaret çəkməyi isə ayrıca “müzakirə” mövzusudur. O, gün ərzində bir ədəd siqaret çəkir. Hər görən soruşur: “Rza müəllim, bəyəm siz siqaret çəkirsiniz?” Rza müəllim də cavab verməkdən yorulub, axır ki, siqareti tullayır.

O, çox kövrək adamdır. Bu kövrəklik artıq onun şəxsi keyfiyyəti olmaqdan çoxdan çıxaraq, bizim institutun mənəvi dəyərinə çevrilib. Yaşca çoxlarından, bəlkə də, hamıdan böyükdür. Bu böyük insanın böyük qəlbi, bu qəlbin böyük kövrəkliyi bizlər üçün insan kimi yaşamağın parlaq örnəyidir. Onu heç bir dünyəvi dəyərin arxasınca qoşan, ömür adlı ilahi neməti dünya adlı fani dəyərə dəyişən görməzsən. Rza müəllim mənəvi dəyərlər aşiqidir. Ömrünü bu dəyərlərlə yaşayıb və bu dəyərlər onun ömrünün bəzəyinə çevrilib.

Baza ixtisası baxımından ərəbşünasdır. Namizədlik dissertasiyasını Azərbaycan-ərəb nağıllarının tipologiyasına həsr edib. Ona görə də həmişə elə güman edirdim ki, bugünkü məşğuliyyəti ixtisası ilə bağlıdır. Ancaq mən Rza müəllimi sonralar başa düşdüm.

O, ömrünü Azərbaycan folklorunun ilkin nəşrlərinin arasında keçirir. Milli Kitabxananın nadir kitablar fondunda işləyir. Keçən əsrin əvvəllərində, ya 30-40-cı illərində çap olunmuş, indi isə qəhətə çıxmış kitabları "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından yenidən tərtib edərək çap etdirir. Bu kitablar bizim oxu dünyamıza sanki bir möcüzə kimi daxil olaraq, bizdən əvvəlki nəsillərin necə böyük bir elmi-mədəni xəzinə yaratdığını göstərir. Rza müəllim kimi alim-qədirşünaslar olmasa, həmin mədəni irs tarixin qaranlıq səhifəsinə çevriləcək, adı olub, özü olmayan ədəbiyyata dönəcək. Lakin bu fəaliyyətin başqa bir tərəfi də var. Bu, Rza müəllimin iç dünyası, mənəviyyat aləmi ilə bağlıdır. O, öz fəaliyyəti ilə bizim milli yaddaşımızı bərpa edir. O yaddaşı ki, biz özümüz də onsuz zamanla yox olub unudula bilərik.

Rza müəllim institutda uşaqdan-böyüyə hamının böyük bir sevgi ilə ünsiyyətdə olduğu insandır. Biz sizi sevirik, Rza müəllim. Sizə Allahdan bizlər naminə, elmimiz və mədəniyyətimiz naminə sağlıq dolu ömür diləyirik.

**Ağaverdi XƏLİL**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# RZA XƏLİLOV: DƏYƏRLİ ZİYALI VƏ GÖZƏL İNSAN

Rza Zeynal oğlu Xəlilov Azərbaycanın tanınmış ziyalılarından, alimlərindən biridir. Lakin o alim kimi də, ziyalı kimi də, insan kimi də sözün ən dolğun və ən müsbət mənasında hamıdan fərqlidir. Söhbət Rza Xəlilovdan gedəndə ilk növbədə Azərbaycan ziyalısının nümunəvi bir siması gözlərimiz önündə canlanır. Elə bir ziyalı ki, doğrudan da cəmiyyətimizin ona ciddi şəkildə ehtiyacı var. Çünki cəmiyyətimiz müxtəlif aşınmalara məruz qalıbdır, bir çox dəyərlər öz mənəvi məzmunundan məhrum olubdur, həm desakralizasiya prosesləri, həm sosial xarakterli sıxıntılar, hüquq, törə, vicdan və əxlaqa dəyən zədələr haqq-ədalət, doğruluq, dürüstlük və halallıq kimi milli etik keyfiyyətlər işləkliyini xeyli dərəcədə zəiflətmişdir. Cəmiyyətimiz kapitalizmə müstəmləkə dövrünün məhv etdiyi mənəvi dəyərlərin sınıq-salxaq qalıntıları ilə daxil olub. İnsanlar özlərini maddi dünyanın əsirinə çeviriblər. Maddi kapital uğrunda amansız mübarizə insanları kiçildib, cılızlaşdırıb, millidən əyalətçiyə çevirib, haqq və ədalət duyğularını unutdurub, halallıq, iman və axirət haqqındakı hissləri arxaikləşdirib. Amansız bir maddi kapital  savaşında mənəvi kapitalın önəmi də yaddan çıxıb. Belə bir şəraitdə  insanın mənəvi dünyası onun mədəsinin miqyası və iştahının dərəcəsi ilə müəyyənləşir. Təəssüflər olsun ki, bizim milli ziyalılığımız bu şəraitin qurbanı olur və yaxşı halda xeyirxah bir yolsuzun yolunu gözləmək məcburiyyətində qalır, rüşvətçi bir məmurun mərhəmətinə sığınır.

Bir zamanlar padşah fərmanı ilə onun üçün müəyyənləşdirilən təqaüdü ala bilməyən Füzulinin də gileyləndiyi sosial xarakterli məsələlərin Rza müəllimlə nə əlaqəsi olduğunu soruşa biləcəklərini də diqqətdə saxlamaq şərti ilə, bu dövrdən, dövrandan, dəhrdən və zamandan bəhs etməyimizin təsadüfi olmadığını aydınlaşdıracağıq. Çünki zamanın amansız şərtləri yaxşı ilə yamanı bir-birinə elə qarışdırmışdır ki, onun ayırd edilməsinə, analizinə və ayrılıqda dəyərləndirilməsinə ehtiyac vardır. "Fələk birəhm, dövran bisükun" olanda əgər "dost da bipərva" isə, o zaman doğrudan da "tale zəbun" olur. Ziyalı məhrumiyyətlərinin milli ənənəyə yad olmayan təcrübəsi müasir dövrün də əsas mənəvi mənzərəsini müəyyənləşdirir.

Ziyalı kütləsinin əziyyət çəkdiyi mövcud şəraitdə mənəvi bütövlüyü və tamlığı qorumaq az adama nəsib olmuşdur. Çünki biz özümüz bu hadisələrin iştirakçısıyıq və məhv olan ziyalı nəslinin nümayəndələri içərisindəyik. Bizim ziyalımız üçün halal bir həyat yaşamaq imkanı təmin edilməmişdir. Hər kəs mövcud olmaq üçün yollar axtarmaq, tapa bilməyəndə bataqlığda batmaq məcburiyyətində qalmışdır. Ortada bir yalan var və bu yalanı satan və alan var, onu alqışlayan, əl çalan var, eyni zamanda bu alış-verişin altında qalan var. Yenə də təəssüf olsun ki, ziyalının mövqeyi sonuncuya müvafiqdir.

Rza müəllimin aid olduğu nəsil zaman baxımından bir xeyli şanslı sayılmalıdır. Çünki Rza müəllimin özü sovet dövrünün sabitlik şəraitində oxumuş və şərqşünas kimi önəmli bir ixtisasa sahib olmuş, ərəb ölkələrində uzun müddət işləmişdir. Müstəqillik dövründə isə Türkiyədə universitetdə pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Bu fəaliyyət dövrü təkcə Rza müəllimin maddi baxımdan qorunmasında və sağ qalmasında deyil, eyni zamanda dost-düşmən içində üzü ağ qalmasında da əhəmiyyətli rol oynamışdır. Ölkə xaricindəki fəaliyyət Rza

müəllimin dünyagörüşündə, hərəkət və davranışında öz izlərini saxlamışdır. Rza müəllimin yüksək etikası, nəzakəti, incə davranışı, mehriban və xeyirxah münasibəti onu fərqləndirən xüsusiyyətlər kimi diqqəti çəkir. İnanırıq ki, Rza müəllimin malik olduğu etik-əxlaqi dəyərlər onun olduğu hər yerdə Azərbaycan ziyalısı haqqında xatirələrdə xoş təəssürat yarada bilmişdir. Şübhəsiz ki, bu müsbət təsəvvürün yaradılmasında Rza müəllimin gendən, qandan və candan gələn şəxsi keyfiyyətləri müstəsna rol oynamışdır.

Rza müəllimin təmiz və təvazökar təbiəti ilə könül dünyasının Allah, insan, vətən və xalq sevgisinin nikbin ifadəsindən doğan xeyirxah niyyəti hər zaman birlikdə olmuş və sadiq dostlar kimi bir-birini tərk etməmişdir.

Rza müəllimdən fərqli olaraq biz bir zaman "taksidən payıza düşən" postmodern lirik qəhrəman kimi universitetdən tam xaosun ortasına düşdük. Biz hələ yolun başında ikən, həyata yeni başladığımız zaman 70-i yelə vermiş sovet imperiyası süqut etdi. Biz müstəqilliyin sevinci ilə xaosda tərk edilmiş şəxsi taleyimizin nigarançılığını birlikdə yaşadıq.

Rza müəllim bizim nəslə nəsib olmayan halallıq şəraitində yaşayıb, yetişib və kamil bir insan olaraq milli mənəvi dəyərləri öz şəxsində birləşdirib. Əlbəttə, bu dəyərlər böyük ölçüdə Rza müəllimin nəsil və nəcabətindən gəlir. Amma Rza müəllim bu dəyərləri mexaniki olaraq daşımayıb, onları daha da zənginləşdirib. Çünki Rza müəllimin təmiz qəlbi, saf, səmimi xarakteri mənəvi dəyərlərin onda yuva qurmasına imkan vermişdir.

Rza müəllim mal-mülk və sərvət həvəsində olmamışdır. Bunun əvəzində Rza müəllim böyük bir mənəvi sərvətə-insanların sevgisinə sahib olmuşdur. Çıxışlarımdan birində mən Rza müəllimi könül dünyasının fatehi adlandırmışam. Yenə də o fikirdə qalıram. Bu mənada da Rza müəllim bizim ziyalılarımı-

zın naxışıdır. Tanıdığım, bildiyim ziyalı insanlarla müqayisə etməli olsam Rza müəllimi mənəvi keyfiyyət cədvəlində Yaşar Qarayevlə, İsrafil Abbaslı ilə bir sıraya qoyardım. Etika, kübar davranış, yüksək əxlaq, xeyirxahlıq, təvazökarlıq, ədalətlilik, halallıq, doğruluq, dürüstlük və əlbəttə ki, geniş məlumat, dərin bilik, elmi təfəkkür və intellekt baxımından Rza müəllim ziyalı elitasının yüksək səviyyəsində layiq olduğu yeri tutur. Təəssüf hissi ilə qeyd edim ki, mən ya yaxşı tanımadığımdan, ya da əmin olmadığımdan bizim bizdən böyük ziyalı nəsli arasındakı müqayisələrimi genişləndirə bilmirəm.

Bir çox hallarda bizim ziyalımız məmur olduqdan sonra nəfsin əsirinə çevrilir, haqq-ədalət duyğusunu sürətlə itirir, gözü özündən başqasını görmür, qul haqqına girir, əlini harama uzadır, beləcə gözlərimiz önündə kiçilir, cılızlaşır və çirkinləşir. Bu halda biz artıq nə ziyadan, nə ziyalıdan, nə də mənəvi dəyər konseptindən bəhs edə bilirik. Şükür ki, biz Rza müəllimi bu neqativ situasiyalarda görmədik. Rza müəllim həyatın hallal yolları ilə hərəkət edib, haqqı unutmayıb və daim ona doğru gedib.

Düşünürəm ki, cəmiyyətimizin Rza müəllim kimi gözəl insanlara ehtiyacı böyükdür. Çünki Rza müəllim mənəvi dəyərlərimizlə cəmiyyətimizi zənginləşdirən, onu gələcək nəsillərə arxivdən və ədəbiyyatdan deyil, canlı həyatdan birbaşa çatdıran nadir simalardan biridir. Onu eyni zamanda daşıdığı mənəvi dəyərlərlə birlikdə qorumaq, ziyalılığımızın zənginliyini mühafizə etmək lazımdır. Ona möhkəm cansağlığı və uzun ömür arzulayıram!

**İslam SADIQ**
**filologiya üzrə fəlsəfə doktoru**

## DÜŞÜNDÜKLƏRİM DÜZ ÇIXDI

Həm bədii, həm də elmi yaradıcılıqla məşğul olan insanlar çox zaman əvvəlcə bir-birinin imzalarını tanıyırlar. Mən də Rza Xəlilovun özündən öncə imzası ilə tanış olmuşam. Onun ərəbşünas olduğunu, İraqda, Misirdə tərcüməçi işlədiyini, ərəb nağıllarında qəhrəmanlıq mövzusunda dissertasiya yazdığını və s. bilirdim. Üstəlik Zeynal Xəlilin oğlu olduğu haqqında da düşünürdüm. Onun adının və soyadının tam yazılışı bu cür düşünməyə əsas verirdi: Rza Zeynal oğlu Xəlilov!

Haqqında artıq yetərincə bilgim olan Rza Xəlilovun özü ilə ilk dəfə Folklor İnstitutunda görüşdüm. Elə ilk görüşdən də onun haqqında məndə xoş təəssürat yarandı. Əslində onun haqqında düşündüklərim düz çıxdı. Hər bir söz adamının yazılarında onun özünü görmək olur. Rza Xəlilovun da əvvəllər oxuduğum yazılarında onun xarakterinin bir çox cizgiləri vardı. Bunlar da məndə müəyyən fikir doğurmuşdur. Rza Xəlilovun sadəliyi, mehribanlığı, istiqanlılığı, çoxlarında görmədiyimiz təvazökarlığı onun haqqında məndə yaranmış ilk fikirləriydi.

Sonralar Rza müəllimlə tez-tez görüşdük, aramızda çoxlu söhbətlər oldu, bir çox məsələlər barədə fikirlərimizi bölüşdük və beləcə bir-birimizi daha yaxşı tanıya-tanıya dostlaşdıq.

Rza müəllimin özümlə bağlı bir xeyirxahlığını heç vaxt unuda bilmərəm. O, Folklor İnstitutunda Müdafiə Şurasının katibi idi. Mənim müdafiəmi nə yolla olur-olsun əngəlləmək istəyirdilər. Hər addımda yoluma kötük dığırlayırdılar. İşi elə qurdular ki, mənim avtoreferatları rəsmi ünvanlara poçtla göndərməyimin son tarixi şənbə gününə düşdü. Şənbə günü

də Folklor İnstitutu işləmirdi. Rza müəllim avtoreferatlara qol çəkməliydi. Mən ona zəng vurdum. Rza müəllim şənbə günü poçta gəldi. Avtoreferatlara qol çəkdi və mən onları göndərdim. Bunu hər adam eləməzdi.

Rza Xəlilovun xidmətləri geniş və çoxsahəlidir. O, folklorun toplanması, tərtibi, nəşri və araşdırılması ilə məşğul olmuşdur. Lakin Rza Xəlilov bunlarla yanaşı, elə bir iş görmüşdür ki, ondan ayrıca danışmaq lazımdır.

Bilirik ki, ötən əsrin iyirmi-otuzuncu illəri Azərbaycanda folklorun toplanmasının və nəşrinin qızıl dövrüdür. Həmin dövrdə onlarla folklor kitabları işıq üzü görmüşdür. Bu kitabların çoxu əski Azərbaycan əlifbasındadır. Hazırda elmlə məşğul olan gənclərin çoxu əski əlifbanı bilmir. Ona görə Azərbaycan folklorunun ilkin nəşrlərindən istifadə etməkdə çətinlik çəkirlər. Rza Xəlilov bu işin ağırlığından qorxmayaraq Azərbaycan folklorunun ilkin nəşrlərinin latın əlifbasına keçirilməsinə başladı və digər həmkarları, daha çox Afaq Xürrəmqızı ilə birlikdə az vaxtda onların çoxunu yenidən nəşr etdirdi. İndi həmin kitablardan hamı istifadə edə bilir. Bu böyük bir xidmətdir.

Rza müəllim bu gün də öz elmi fəaliyyətini böyük həvəslə davam etdirir. Ona cansağlığı və uzun ömür arzulayıram.

***04 aprel 2015***
***Novxanı***

**Tahir ORUCOV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

## GÖZƏL ALİM, QAYĞIKEŞ İNSAN

Ən böyük kəşf insanın özündə olanı tapmaqdır.
**(V.Şekspir)**

Dünya şöhrətli aktyor Çarli Çaplinin oğlanlarının maraqlı bir xatirəsi var. Onlar yazırlar ki, atamız çəkdiyi, özünün də baş rolda oynadığı, bütün dünyanı gülməyə və onun haqqında ürək dolusu danışmağa məcbur edən məşhur səssiz filmlərini tez-tez evə gətirərdi. Biz də oturub bu filmlərə həvəslə və maraqla baxardıq. Filmdə kadrlar dəyişdikcə atamız tez-tez onlara şərhlər, izahlar verər, xüsusi bir pafosla, həvəslə danışardı. Biz isə onda buna adi bir hal kimi baxardıq. Ancaq o vaxt burasını düşünməzdik ki, biz Çarli Çaplinin səssiz filmlərini onun elə öz səsində dinləyən azsaylı adamlardanıq.

Mən də 13 il bindan əvvəl – Rza müəllimi tanıdıqdan sonra, yəni onun səmimiyyətlə, qayğıkeşliklə yoğrulmuş xarakterinə bələd olandan, onun nurlu çöhrəsini, insanlara qarşı təmənnasız xeyirxahlığını görəndən sonra Ç.Çaplinin oğlanlarının bənzər fikirlərini Rza müəllim haqqında düşünmüşəm. Fikirləşmişəm ki, bizlər – AMEA Folklor İnstitutunun əməkdaşları və ümumiyyətlə, Rza müəllimi tanıyanlar, onunla ünsiyyət quranlar, onun əsl insan xüsusiyyətlərini və hər bir insana təmənnasız qayğısını, xeyirxahlığını görən azsaylı insanlardanıq. Çünki Rza müəllimin parlaq şəxsiyyəti, böyük insanlığı və hüdud bilməyən alicənablığı onu tanıyanların hər biri üçün əlçatmaz bir zirvə, əvəzsiz bir nümunədir. O, yüksək əxlaqı və kübar davranışları ilə əsl Azərbaycan kişisinin yüz

illəri aşıb gələn kristal xarakterlərinə malik çağdaş, eyni zamanda "köhnə" bir kişi, qeyrətli bir vətəndaşdır. Rza Xəlilovun xarakterinə, eyni zamanda idraki düşüncə tərzinə, ilk baxışdan sezilməyən, lakin sonradan, tədricən müəyyənləşən dərinlik və genişlik xüsusiyyəti də xasdır.

Rza Xəlilov Azərbaycan cəmiyyətinin elə nadir insanlarındandır ki, əminəm ki, onu tanıyan istər gənc nəsil, istər orta nəsil, istərsə də yaşlı nəsil onun insani xüsusiyyətlərindən nəyi isə özü üçün örnək götürüb, nəyi isə özü üçün əxz edib.

Rza müəllimdən bu xüsusiyyətlərindən örnək götürən belə insanlardan biri elə mən özüm olmuşam. Mən ondan çox az insanda gördüyüm son dərəcə qayğıkeşliyi və diqqətcilliyi özüm üçün örnək götürmüşəm. Rza müəllim gözəl alim, qayğıkeş və xeyirxah bir insandır. O, təvazökar, səmimi, vicdanlı, xeyirxah, intizamlı, əxlaqlı, mədəni və daxilən azad bir insandır. Onu tanıyanların, onunla az-çox ünsiyyətdə olanların hamısı, şübhəsiz, bununla razılaşar ki, bütün bu sadalanan keyfiyyətlər Rza müəllimi xarakterizə edən başlıca cəhətlərdir. R. Xəlilov sabit, daxili ruhi-mənəvi sabitliyə malik olan təmkinli, müdrik, eyni zamanda çox kövrək bir insandır. Ən mürəkkəb situasiyalarda, ziddiyyətli vəziyyətlərin yarandığı məqamlarda belə, Rza müəllimin mənəvi keyfiyyətləri, insanlığı, alicənablığı və qayğıkeşliyi həmişə ön plana keçir. Məncə, söyləyəcəyim ən azı iki fakt Rza Xəlilovda bu cəhətlərin nə dərəcədə qabarıq şəkildə olduğunu əyani şəkildə sübut edə biləcək.

Birinci fakt. İş elə gətirmişdi ki, 2003-cü ildə mənim namizədlik dissertasiyası üçün götürdüyüm elmi işin –"Qaravəlli janrının poetikası"nın yazılması üçün nəzəri məlumatlar son dərəcə az idi. Və mən bəzən dissertasiyadan bir neçə səhifə yazmaq üçün həftələrlə M.F.Axunov adına Azərbaycan Milli Kitabxanasında, AMEA Mərkəzi Elmi Kitabxanasında, BDU-

nun, ADPU-nun Elmi Kitabxanalarında olurdum. Mövzu haqqında kiçik bir nəzəri məlumat tapanda sevincimin həddi-hüdudu olmurdu. Necə deyərlər, dissertasiya işim səhifə-səhifə yox, az qala abzas-abzas yazılırdı. Demək olar ki, bütün Folklor İnstitutunun əməkdaşları bu mövzunun çətinliyini bilirdi. Bunu bildiklərindən bir çox əməkdaşlar və dostlarım məni ruhlandırmağa çalışır, öz məsləhətlərini verirdilər. Onların içərisində mənə ən çox diqqət yetirənlərdən, mənə məsləhət verənlərdən biri Rza müəllim idi. Belə məqamlarda mən Rza müəllimə artıq əziyyət vermək istəmədiyimdən ondan mənə nəzəri materialları tapmaqda kömək etməsini xahiş etmirdim. Lakin buna baxmayaraq, o, mənim mövzuma aid materiallarla rastlaşdıqca qeydlər götürür, lazım gəldikdə isə onların surətini çıxarıb mənə gətirirdi. Və hər dəfə də onları mənə verəndə məni ruhlandıraraq deyərdi: “Tahir, narahat olma, mən sənin potensialına, işgüzarlığına bələdəm. İnanıram ki, sən bu mövzunun öhdəsindən gəlib, yaxşı bir iş ortaya qoyacaqsan”. Belə də oldu ─ mən bu çətin mövzunun öhdəsindən gəlib, 2007-ci ilin 18 yanvarında, Rza müəllim kimi insanların və digər dəyərli dostların köməyi ilə namizədlik dissertasiyasını uğurla müdafiə etdim.

İkinci fakt. Bilənlər bilir ki, mən xeyli vaxtdır ki, AMEA Folklor İnstitutu Həmkarlar Təşkilatının sədriyəm. İşimin peşə xüsusiyyəti ilə əlaqədar olaraq, əsas fəaliyyətim Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq işçilərin əmək hüquqlarını qorumaq və mədəni-kütləvi işləri həyata keçirməkdə İnstitut rəhbərliyinə kömək etməkdən ibarətdir. Digər tərəfdən, aztəminatlı işçilərin ehtiyacları ilə maraqlanmaq, Təşkilata ərizə ilə müraciət etmiş İnstitut əməkdaşlarına maddi yardımlar göstərmək, onları sanatoriya-kurort müəssisələrinə yollayışlarla təmin etmək də Həmkarlar Təşkilatının sədri kimi

mənim fəaliyyət prioritetlərimə daxildir. İşlədiyim bu müddət ərzində xeyli sayda İnstitut əməkdaşı bu məqsədlərlə mənə müraciət etmişdir. Mən də Folklor İnstitutunun rəhbərliyinin qarşılıqlı razılığı ilə müraciət edən İnstitut əməkdaşlarının, demək olar ki, hamısının istəklərinə əməl etmişəm. Bu illər ərzində yadıma gəlmir ki, Rza müəllim bircə dəfə də olsun özünün şəxsi işi ilə və ya sanatoriya-kurort müəssisələrinə yollayışla bağlı mənə müraciət etsin. Əksinə, Rza müəllim özünə yox, bir neçə aztəminatlı İnstitut işçilərinə (Bu yazıda konkret olaraq onların adlarının çəkilməsi ən azı qeyri-etik olardı – T.O.) yardım edilməsini dönə-dönə məndən xahiş edib. Mən də təbii ki, imkan daxilində Rza müəllimin bu insani xahişlərini ürəklə, canla-başla yerinə yetirmişəm. Ən azından ona görə ki, bu alicənablıq, bu insanlıq Ulu Tanrının öz bəndəsinə bəxş etdiyi insani xüsusiyyətlərin bəlkə də ən birincilərindən və ən alilərindəndir.

Bu insani xüsusiyyətlərlə yanaşı, Rza Xəlilov Azərbaycan folklorşünaslığında öz dəsti-xətti, öz yolu olan folklorşünas-alimlərdəndir. Folklorşünaslığın böyük yoluna özündən əvvəlki elm adamlarından öyrənə-öyrənə gələn Rza Xəlilov Azərbaycan folklorşünaslığında yaradıcı ömrünü şifahi xalq yaradıcılığına həsr edən folklor fədailərimizdəndir. R.Xəlilov folklorla bağlı istənilən məsələlərdə bəhs edilən problemin birbaşa mahiyyətə varmaq, onu dəqiqliklə anlamaq və analiz etmək qabiliyyətinə malikdir.

Onun taleyi də, ömür yolu da folklorla, xalq yaradıcılığı ilə, şeirlə, ədəbiyyatla döyünən bir şair ailəsi ilə bağlı olub. Rza Xəlilov 11 noyabr 1944-cü ildə Bakı şəhərində ziyalı ailəsində – Azərbaycanın tanınmış, istedadlı şairlərindən biri olan Zeynal Xəlilin ailəsində anadan olub. 1960-1962-ci illərdə Bakıda fəhlə-gənclər orta məktəbində oxumaqla yanaşı,

M.F.Axundov adına Respublika kitabxanasında foto-laborant vəzifəsində çalışıb.

Rza Xəlilov 1962-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin (o vaxtkı S.M. Kirov adına ADU) şərqşünaslıq fakültəsinin ərəb dili və ədəbiyyatı şöbəsinə daxil olmuşdur. O, 1966-67-ci il tədris ilində Misirin Qahirə Universitetində ərəb dilindən dil təcrübəsi keçmişdir. R.Xəlilov 1968-ci ildə Bakı Dövlət Universitetini ərəb filologiyası ixtisası üzrə bitirmişdir.

O, 1969-71-ci illərdə İraqda ərəb dili tərcüməçi vəzifəsində işləmişdir. 1971-ci ildə İraqdan qayıtdıqdan sonra Rza Xəlilov AMEA (o vaxtkı Azərbaycan Elmlər Akademiyası) Nizami adına Ədəbiyyat İnstitutunda folklorşünaslıq ixtisası üzrə aspiranturaya daxil olmuşdur.

R.Xəlilov 1978-82-ci illərdə Yəmən Ərəb Respublikasında Sovet səfirliyinin iqtisadi işlər üzrə müşavirinin aparatında tərcüməçi vəzifəsində işləmişdir. 1983-cü ildən Ədəbiyyat İnstitutunda işləməyə başlamışdır. Rza Xəlilov 1989-cu ildə 10.01.09 "Folklorşünaslıq" ixtisası üzrə "Azərbaycan və ərəb sehrli nağıllarında qəhrəman obrazları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. O, 1994-2001-ci illərdə Türkiyənin Ərzurum şəhərindəki Atatürk Universiteti Fənn-Ədəbiyyat fakültəsinin Şərq dillər bölməsində işləmişdir. 2001-ci ildən AMEA Folklor İnstitutunda böyük elmi işçi, 2005-ci ildən aparıcı elmi işçi vəzifəsində işləmişdir. Filologiya üzrə fəlsəfə doktoru, dosent Rza Xəlilov 2013-cü ildən AMEA Folklor İnstitutunda Klassik folklor şöbəsinin müdiridir.

Azərbaycan şifahi xalq ədəbiyyatı – folklor nümunələrinin toplanıb sistemləşdirilməsi və tərtibi sahəsində Rza Xəlilovun böyük xidmətləri olmuşdur. O, dəfələrlə Dərbənd, Şirvan,

Quba və Muğan bölgələrində folklor ekspedisiyalarında iştirak etmiş, xalqın əvəzsiz söz xəzinəsini toplayıb yazıya almışdır.

İndiyə qədər R.Xəlilovun yeddi kitabı: Aşıq Əsəd (toplama və tərtib), Bakı: Elm, 1979 (B.Abdullayevlə); "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" kitabında "Cənubi Azərbaycan folkloru" bölümü (tərtib), Bakı: Elm, 1981; Ərəb nağılları, Ərəb dilindən rus dilinə tərcümə, Şərq almanaxı, XIII buraxılış, 1984; Allah yıxdığı evi qızlar tikər" (O.Əliyevlə birlikdə), Bakı:Yazıçı,1994, Məmmədvəli Qəmərli, Atalar sözü (transliterasiya və nəşrə hazırlamaq), Bakı:Səda, 2003; Mirzə Abbas Abbaszadə. "Arvad ağısı" (ön söz, transliterasiya və nəşr) (A.Xürrəmqızı ilə birlikdə), Bakı:Səda, 2004; "Bayatılar və manilər" (transliterasiya, ön söz və sözlüyün müəllifi (A.Xürrəmqızı ilə birlikdə), Bakı:Səda, 2004, s. 60; 50-dən artıq məqalə, tezis və məqalənin müəllifidir.

2014-cü il noyabr ayının 11-də gözəl alim, qayğıkeş bir insan, yorulmaz tədqiqatçı olan Rza Xəlilovun 70 yaşı tamam oldu. Bu yaş insan ömrünün müdriklik çağıdır. Biz şərəfli bir alim ömrü yaşayan bu müdrik insanı – Rza müəllimi yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona cavanlıq eşqi, işlərində daha böyük uğurlar arzu edirik. Əminik ki, Rza müəllim bundan sonra da yeni-yeni tədqiqat əsərləri, kitabları, məqalələri ilə bizləri sevindirəcək, Azərbaycan folklorşünaslığını və şərqşünaslığını daha da zənginləşdirəcəkdir. 70 yaşınız mübarək, Rza müəllim!

**Mətanət YAQUBQIZI**
**filologiya üzrə fəlsəfə doktoru**

# XEYİRXAHLIQ MÜCƏSSƏMƏSİ

Belə bir atalar sözü vardır: Ən yüksək elm müdriklikdir, ən yüksək müdriklik isə xeyirxahlıqdır. Rza müəllim müdriklik zirvəsinə qalxan xeyirxah bir insandır, şəxsiyyətdir.

Az-az adam tapılar ki, onun hansısa bir işində Rza müəllimin rolu olmasın.

Uzun illər idi ki, doğmalarımızdan biri haqqında məlumatımız yox idi. Heç cürə ondan məlumat ala bilmirdik. Müraciət etmədiyimiz təşkilat, döymədiyimiz qapı qalmamışdı. Bu işdə bizə vasitəçi məhz Rza müəllim oldu. Rza müəllim bizi doğmamızla görüşdürən ən gözəl vasitə oldu. Hal-hazırda bizim doğmamızla əlaqəmizin davam etməsinin yeganə səbəbkarı yuxarıda Allah, aşağıda Rza müəllim oldu ki, ömrüm boyu bu insana özümü borclu sayıram.

Bu insan yalnız şəxsi həyatda dostumuz deyil, ictimai mühitdə də daima bələdçimiz, yol göstərənimizdir.

Rza müəllim ərəb dili mütəxəssisidir. Ərəb dilini bildiyi üçün əski əlifbanı gözəl bilir. Tarixən bu əlifbada yazılmış güclü mənbələrimiz mövcuddur. Bu insan yaşının müdriklik çağında olmasına baxmayaraq, hətta bəzən səhhətinin yerində olmasına baxmayaraq bu işi davamlı şəkildə görür. Əski əlifba ilə yazılmış mənbələrin institutumuza gətirilməsində, nəşr olunmasında bu insanın əvəzsiz xidmətləri danılmazdır.

Rza müəllim "Klassik folklor" şöbəsinin müdiridir. Bu insan özünü sıravi insan kimi aparır, mərhum İsrafil müəllimin ruhunu daima öz üzərində hiss edir, onun yerini tutmaq istəmir.

Çox həssas insandır. Hamının dərdinə, sevincinə şərik çıxır. Kövrəkdir.

Təvazökar insandır. Alman dramaturqu Q.E.Lessinq belə demişdir: "Bütün böyük adamlar təvazökardır". Təvazökar olmadan müdrik olmaq olmaz! Təvazökarlıq müdrikliyin yaraşığıdır, – demişdir babalarımız.

"Ot öz kökü üstə bitər". Rza müəllim gözəl şairimiz Zeynal Xəlilin oğludur. Köklü nəsildəndir. Ağayanalığı, yüksək əxlaqı çoxlarına örnək olan bu insan nə yaxşı ki, aramızdadır.

Çox böyük zəhmətə, çox böyük ürəyə malikdir bu insan. Ancaq heç bir zaman bu insan başını göylərə qaldırmadı. Həmişə "barlı ağac" kimi başıaşağı gəzir.

Daima axtarışdadır. Gözəl alimdir. Çoxlu məqalələr, kitab müəllifidir. Heç kəsə bəlli olmayan mənbələri yerindəcə oxuyur, əlifbamıza çevirib institutumuzun arxivinə gətirir. Bu insan zəhmətkeşdir. Şöbənin bütün işçilərinə qarşı çox həssasdır. Hamı onun verdiyi işlərə məsuliyyətlə yanaşır, bütün işləri vicdanla yerinə yetirirlər.

Rza müəllim qayğıkeş bir dost kimi insanlara kömək edir, təkan verir, dəstək olur. Bu insanın amalı budur: Xeyirxahlıq etmək! Ona görə də bu insana yalnız bir ad vermək olar: Xeyirxahlıq mücəssəməsi!

Rza müəllim rəsmiyyətdən uzaq bir adamdır. Bütün insanlar onunla çox rahat dərdini bölüşə bilər, probleminə çıxış yolu, çözüm tapar. Bu insan hamı ilə sirdaşdır. Hamıya nəinki dost kimi, bir ata qayğısı ilə yanaşır. Allah bu qayğını üstümüzdən əskik etməsin!

**Qalib SAYILOV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# İNSANIN SƏRVƏTİ ÖZ ŞƏXSİYYƏTİ OLMALIDIR

Həyatda insan çox şeylə ötüşə bilər, təkcə insansız ötüşə bilməz. Deməli, dünya dediyimiz bu fani aləmdə ən dəyərli varlıq insandır. Təəssüf ki, elə bir zaman gəlib ki, çoxluq üçün insan və insanlıq məfhumu arxa plana çəkilir. Lakin sözümüzün-söhbətimizin dadı, ləzzəti Rza müəllim üçün həmişə önəmli insan və insanlıq faktoru olmuşdur. O, bir insanpərvərdir, çünki belə doğulub, belə tərbiyə olunub. Dinimizdə, əxlaqımızda belə bir rəvayət var. Deyirlər ki, bir səhabə Peyğəmbər s.a.s. əfəndimizin yanına gəlir və uşaq tərbiyəsi ilə əlaqədar əfəndimizdən soruşur: – Ya Allahın elçisi, uşağı neçə yaşından tərbiyə etmək bəyənilər? Əfəndimiz ondan soruşur ki, uşağının neçə yaşı var? Deyir ki, 9 aylıqdır. Əfəndimiz deyir ki, gecdir. Uşağı ana bətnindən tərbiyə etmək lazımdır – söyləyir. Bu rəvayətin çox dərin fəlsəfi-didaktik mənası var. Bəli, uşaq ana bətninə düşməzdən əvvəl onun saleh və itaətkar olmasını düşünmək vacib buyurulur. Bunun əsas qayəsi uşağın valideynlərinin halal-hümmət olması faktını ortaya qoyur. Söhbətimizin qəhrəmanı Rza Zeynal oğlu Xəlilov belə bir halal mayadan doğulan insanlardandır.

İnsanın hər şeyi gözəl olmalıdır: üzü də, paltarı da, qəlbi də, fikirləri də. Rza Xəlilov bu kateqoriyalarla doğulub və yaşayır. Mən onun alimliyindən və əsərlərindən söhbət açmaq istəmirəm. Düzdür, Rza Xəlilovun alimliyi haqqında bir cümlə ilə kifayətlənəcəyəm. ***Rza Zeynal oğlu Xəlilov çox səliqəli, ciddi və zəngin informasiya bazasına malik alimdir.*** Aqillər-

dən biri gözəl ifadə edib: “Alimin elmi söz konusu olmamalıdır. Zatən alimdirsə, elmi var, lakin əsas onun insanlığıdır. Rza müəllim çox kövrək bir insandır, bu da onun daxili imanından irəli gəlir. O, məntiqli və səbrli birisidir. Mən neçə illərdir onu izləyir, onun hərəkətlərinin nümunə olacağını hiss edirəm. Heç vaxt tələsməz və özündən çıxmaz. Əlverişli imkan əldə etmək üçün bəzən illəri gözləyib, ağlının hökmü ilə ləngidikcə gələcək müvəffəqiyyətlərinin ölçüsü artıb.

Rza müəllim mədəni şəxsiyyətdir; – şəxsiyyəti mədəniyyət yaradır, şəxsiyyətin miqyası onun mədəniyyətinin yüksəkliyindən asılıdır. Deyirlər ki, mədəniyyət üçün hər şeydən əvvəl bilik lazımdır, amma cilalanmasa alim də kobud görünər. Deməli, alimliyin birinci prinsipi mədəniyyətdir. Rza müəllimin təkcə fikirləri deyil, arzuları da, danışıq tərzi də zərifdir, yəni, mədəni və tərbiyəlidir. Elə alimlər olur ki, onlar o qədər yonulmamış (rusca çurban) olurlar ki, bütün təbii xüsusiyyətləri, bəzən müsbət keyfiyyətləri də vəhşi kobudluqları nəticəsində heçə enir. Şeyx Nizami Gəncəvinin təbirincə desək, İnsan kərpic kimidir – bişdikcə möhkəmlənir. Rza əmi də (mən ona çox zaman dadlı olsun deyə müəllim yox, əmi deyirəm) həyat kitabının mənalı səhifələrini yazaraq mətinləşmişdir. Möhkəm insan həyatda hər şeyi iradəsinin gücünə, xəyalpərəst insan utopiyasına, duyğulu insan isə sevgiyə aid edir. R.Xəlilov üçüncülərə aid şəxsiyyətdir. Mənə elə gəlir ki, onun fəlsəfəsinə görə insanı tanımaq üçün onu sevmək lazımdır. Rza müəllim həyatda bütün yaxşı mövqeləri qazanıb;

1) Yaxşı övlad (biz onun validəsinə qayğısının şahidiyik)
2) Yaxşı ata
3) Yaxşı dost
4) Yaxşı yoldaş
5) Yaxşı vətəndaş

6) Yaxşı insan

O, həyat pillələrində yüksəldikcə insanlar qarşısında dikəlmədi, təvazö ilə yaşadı. Hər bir insanı öz dilində danışdırdı Rza əmi. Fikrimi Bernard Şounun bu sözləri ilə bitirmək istəyirəm: “Adam olmayan başqalarını adam saymaz”. Rza Xəlilov hamını saydı, hamını sevdi, məhz ona görə də hamı tərəfindən çox hörmətlə sayılır və sevilir. 70 yaşın mübarək, Rza əmi!

**Şakir ALBALIYEV**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# AĞIRÇƏKİLİ SAYILIB-SEÇİLƏN KİŞİ

*Məndən söyləməkdir, səndən eşitmək:*
*Bir insan əliboş gəzməsin gərək!*

Dahi söz ustadı Nizami Gəncəvinin aforistik səciyyəli bu fikrinin üst qatında insana tənbəllikdən uzaq olmaq tövsiyə olunur. İnsana hansısa ictimai faydalı bir işlə məşğul olmaq, əliboş – yəni bekar-beytin gəzməmək ideyası aşılanır. Doğrudan da, Allah-təala insanı fiziki baxımdan da təkmil yaradıb, ona iş görə bilən, əməklə məşğul ola bilən əl bəxş eləyib. İnsan yaratmaq-qurmaq qabiliyyətini, yaradıcılıq-quruculuq istedadını məhz əlləri vasitəsilə reallaşdıra bilir. O əllər ki, işləmirsə, fiziki əmək gücünü nümayiş etdirmirsə, demək, o əlin sahibi cismani baxımdan sağlam görünsə də, əslində şikəstliyə bərabər kimi bir şeydir. Eyni zamanda insan ona əta olunmuş iş-güc görmək qabiliyyətinə malik əllərini işlətmirsə, tənbəllik-harınlıq edirsə, deməli o, bununla həm də fiziki baxımdan insanın göstərəcəyi işgüzar əməldən özünü məhrum edir, insanlıq simasını itirib, həm də tənbəllik-harınlıq azarına tutulmaqla mənəvi keyfiyyətlərini də itirmiş olur. Bu mənada fiziki işdən özünü qəsdən məhrumetmə insanın təkcə cismani-fiziki şikəstliyinə yox, həmçinin mənəvi kasadlığına da dəlalət edir. Bu kontekstdən yanaşdıqda, yuxarıdakı misralarda deyilən və üst qatda görünən zahiri fikirdən doğan nəticənin hansı mətləblərə işarə etdiyi bəlli olur: əliboş gəzməyin, fiziki iş görməməyin, yəni tənbəlliyin fiziki və mənəvi fəsadlara yol açacağı aydın görünür.

Bütün bunlarla yanaşı, “Bir insan əliboş gəzməsin gərək!” fikrinin alt qatında bir başqa mətləb də dayanıb: bu,

“əliboş gəzməmək” ifadəsinin özündə ehtiva etdiyi mənəvi cəhətdir. İnsanın əliboş olub-olmaması onun əlinin qazancına işarədir. İnsanın qazancı isə sadəcə maddiliyi əks etdirmir, mənəvi meyarı da öz əhatə dairəsinə alır. Bir el bayatısında buna əyani işarə var:

Əzizim qazançanı,
Tutmusan qazançanı,
Baş götürüb gedirsən,
Əlində qazanc hanı?

Burada dünyada maddi nemətlər uğrunda mübarizə aparan insanın sonda “bu dünyadan baş götürüb getməsi” – ölməsi müqabilində bəs indi “Əlində qazanc hanı?” sualları ilə ittiham olunmasında əslində onun mənəvi qazancının nədən ibarət olması soruşulur. Demək insanın əliboş olmaması onun maddi qazancını da səxavətlə paylamasına, həmçinin də ki, mənəvi qazancının olmasına dəlalət edir.

Belə olan halda, dahi Nizaminin “Bir insan əliboş gəzməsin gərək!” şəklində söylədiyi nəsihətində həm də insana mənəvi cəhətdən əliboş gəzməməsi tövsiyə olunur. Bəli, insan əliboş gəzməyəndə – tənbəllik, bekarçılıq, avaralıq etməyəndə və eyni zamanda mənəvi baxımdan əliboş olmayanda, mənəvi dəyərlərlə yaşayanda, dünyanın əşrəfi sayılan insanlıq adına layiq bir ömür yaşamış olur...

Haqqında söz açacağım iş yoldaşım, nurani insan, ağsaqqal ziyalı olan Rza müəllimin özündən geridə qoyduğu yetmiş illik şərəfli ömür yoluna diqqət yetirəndə, onun bu yaşacan əliboş gəzmədiyinin şahidi oluruq. Rza müəllim çox yerlər gəzib, çox ölkələr dolaşıb, heç birindən də əliboş geri dönməyib. Özü ilə özü boyda xətir-hörmət gətirib, dünya boyda qədir-qiymət qazanıb, mənəvi ucalıq haqqına yetişib. Mənəvi ləyaqətini həmişə qoruyub saxlayıb, heç desən, əlido-

luluq sözünün maddi anlamında olan səxavətindən də geri qalmayıb, yeri düşdükcə imkanı daxilində ətrafındakılara səxavət də göstərib. Başqa sözlə, özünün maddi və mənəvi qazancını məsrəf edə-edə, özünə alqış-dualarla, hörmət-izzətlə dolu bir ömür yolu qət edib. Bu gün hamının onun haqqında ağızdolusu danışmağının da, onu ehtiramla dindirmələrinin də kökündə məhz bu amil dayanır...

Bəli, Rza müəllim heç vaxt əliboş gəzməyib, əliboş yaşamayıb. Həmişə əlində yük daşıyıb, çiynində yük daşıyıb. Bu yükün adı ağır mənəvi yük olub: insanlıq yükü. İnsanı şərəfləndirən, daha da ali edən, yüksək nüfuza – mərtəbəyə qaldıran insanlıq yükü. Bu yükün bir adı da çiynində gəzdirdiyi ağır ailə yükü olub. Zəhmətkeş fəhlə kimi öz ailəsinin, namusunun, qeyrətinin yükünü çəkib, təəssübünü çəkib. Desəm ki, insan elə bu dünyaya yük daşımaq üçün gəlib, daha doğru olar. Bu yükün mahiyyəti insanlığa, insani dəyərlərə xidmət göstərən yükdür. Bu yükdən – istər fiziki yük olsun, istər mənəvi yük – imtina eləmək isə insanlığa xəyanətdir.

Dahi Nizami şair olmaqla yanaşı, özünün müdrikliyi ilə həm də ağsaqqal yol göstərənimiz, ulu babamızdır. Buna görə də Rza Xəlilov bir insan kimi hələ ağlı kəsən gənclik, yeniyetməlik çağlarından dahi şairin söylədiyi "Bir insan əliboş gəzməsin gərək!" məsləhətinin hökmünü dinlədi, eşitdi, əməl etdi. Axı, Rza müəllimin atası da dahi Nizami sənətinin varisi olub, o da xalqımızın sevilib-seçilən şairlərindən olub. Oğul isə atanın həm cismani, həm də mənəvi davamçısıdır. Bu mənada Rza müəllim ata ocağının layiqli davamçısı kimi mənəvi bir ömrə sahibdir. Əslində şair Zeynal Xəlil oğluna atasının adını qoymaqla belə bir missiyanın məhz Rza müəllimin timsalında gerçəkləşməsini arzulamışmış. Elə Rza müəllim də bu arzunu bir missiya kimi şərəflə reallaşdırıb. Bu kontekst-

dən yanaşdıqdan şair Zeynal Rza oğlu Xəlilovun oğlu olan alim Rza Zeynal oğlu Xəlilov cismani ömründə və mənəvi yaşamında ən azından nəslinin, tayfasının üç nəfərinin adını, çəkisini bir mənəvi yük olaraq öz çiynində layiqincə gəzdirib: atasının övladı kimi ata ocağının keşikçisi olub, ata yolunu davam etdirib, yaşadıb; babası Rza kişinin adaşı – ad daşıyıcısı olmaqla babasının ruhunu öz timsalında hörmətlə anıb, xatırladıb və yaşadıb; bir də ki, Rza müəllim bir alim kimi özü olmaqla – filologiya üzrə fəlsəfə doktoru, dosent, ərəbşünas, folklorşünas alim Rza Zeynal oğlu Xəlilov olmaqla özü-özünü mənəvi etalon – ölçü nümunəsi kimi qoruyub-yaşadıb. Bu minvalla düşündükdə Rza müəllim bu dünyada təkcə özünün fiziki və mənəvi yükünü daşımayıb, həmçinin də atasının və babasının adını-sanını, ehtiramını qorumaqla böyüklərinin-ulularının mənəvi yükünü öz üstündə çəkib, yaşadır. Elə Rza müəllimi öz əzizləri arasında, iş yoldaşları içərisində və ictimaiyyətdə şərəfə-şana mindirən də, sevdirən də onun bu ağır məsuliyyətli yükləri öz üstündə ləyaqətlə daşıması olub. Bəli, insanı şərəfləndirən onun üzərinə yüklənmiş missiyanı bir yük kimi dəyanətlə, təpərlə, qeyrətlə vicdanla gəzdirə bilməsindədir, Nizaminin təbirincə desək, insanın "əliboş gəzməməsindədir". Bizim Rza müəllim bax belə bir yükün daşıyıcısıdır – insanlıq yükünün. İnsanlıq yükü nə qədər ağır olursa, onu daşıyanlar da o qədər ağırçəkili sayılıb-seçilən olurlar. Bax bizim Rza müəllim də belə ağırçəkili, sayılıb-seçilən kişilərdəndir. Belə bir kişinin yaşaması, bizim aramızda fəaliyyət göstərməsi isə cəmiyyətimizin mənəvi harmoniyasını simvolizə edir. Mənəvi harmoniyamız heç zaman pozulmasın. Ağırçəkili, sayılıb-seçilən kişi olan Rza müəllimə uzun ömür, cansağlığı, uğurlar arzulayırıq!

**Tacir SƏMİMİ**
**filologiya üzrə fəlsəfə doktoru**

## RZA MÜƏLLİM

Deyirəm dünyada işıqlı, yaşlı adamlar olmasaydı, yaşamaq da çətin olardı. Belə yaxşı adamlardan biri də Rza müəllimdir. Mən Rza müəllimi on dörd, on beş ildir ki, tanıyıram, daha doğrusu, bir institutda işləyirik. Həmişə mən Rza müəllimi gülərüz görmüşəm. Kiməsə acıqlandığı, pərt etdiyi yadıma gəlmir.

Heç yadımdan çıxmır, müdafiə şurasının katibi işləyəndə işinə çox can yandırırdı. O, müdafiə edən adamdan çox əziyyət çəkər, onun təsdiqi müəyyən olana qədər narahat olardı. Rza müəllim səbir və təmkinlə işini davam etdirərdi. İndi də elədir, boş dayanmır. Baxırsan ki, qoltuğunda qovluq var, ya oturub nəsə yazır. Bir sözlə, kitab tərtibi, tərcümə və başqa işlərlə zövqlə məşğul olur. Rza müəllim olduqca xeyirxah, nəcib adamdı, həmişə adamlara kömək etmək, nədəsə yardımçı olmaq sanki onun borcudur. Rza müəllimin adı gələn kimi institutumuzda hamının gözləri gülür, üzlərdə təbəssüm görünür, çünki hamı onu sevir, ona hörmət bəsləyir.

Mən eşidəndə ki, bizim hörmətli Rza müəllimin 70 yaşı tamam olub, düzü, inanmadım. Maşallah, Rza müəllim elə mən on dörd-on beş il bundan əvvəl gördüyüm adamdı. İşgüzarlığı, halallığı ilə hamının ürəyini fəth eləyib.

Mən də Rza müəllimi 70 illiyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı arzulayıram. Gün o gün olsun, Rza müəllimin 80, 90 və 100 illiklərini təbrik edək. Allah Sizi həmişə var eləsin. Rza müəllim, Siz bizim sevimlimiz və fəxrimizsiniz.

**Ülkər ƏLİYEVA**
**filologiya üzrə fəlsəfə doktoru**

## DƏYƏRLİ İNSAN

Kəssə hər kəs tökülən qan izini,
Qurtaran dahi odur, yer üzünü.
***H.Cavid***

Deyirlər bir insan hamı üçün eyni ola bilməz. Əminliklə deyə bilərəm ki, Rza müəllim hamı üçün eynidir. Tanıyanlar arasında onu sevməyən tapılmaz. Rza müəllimin şəxsiyyətində əsl insana məxsus bütün keyfiyyətlər cəmlənib. Təəssüf ki, bəşəriyyət belə insanları az yetirir.

Sevdiyim şəxsiyyətlər haqqında yazarkən mənə elə gəlir ki, dilimizin lüğət fondu bəsitdir, çünki mən şablonlaşmış ifadələri onlara şamil edə bilmirəm. "Rza müəllim zəhmətkeş alim, gözəl ailə başçısı, səmimi iş yoldaşıdır" cümləsini yazmaqla elə bilirəm ki, onun haqqında heç nə deməmişəm. "Vaxtdan uca" ifadəsini Azərbaycan ədəbiyyatına dəyərli yazıçımız R.Hüseynov gətirmişdir.

Rza müəllim — siz də, vaxtdan ucada dayanırsınız.

Onun körpə qəlbi kimi saf qəlbinin nuru işıqlı təbəssüm kimi çöhrəsində əks olunmuşdur. Ağrı-acılı anlarında da çöhrəsindəki təbəssüm onu tərk etmir. Mən Rza müəllimin tələbəsi olmamışam, lakin onun rəhbərliyi altında işləməyin özü də böyük məktəbdir.

Rza müəllim, sizə Allah yanında daim ucalıq arzusu ilə yazımı tamamlayıram.

Budur, yer üzünün əşrəfi, insan. (S.Vurğun)

**Atəş ƏHMƏDLİ**
**filologiya üzrə fəlsəfə doktoru**

## YUBİLEY YAŞIN MÜBARƏK

Eşidəndə ki, Folklor İnstitutunda Rza müəllim haqqında "Yubiley" kitabı hazırlanır, çox sevindim. Düzünü desəm, bir az da təəccübləndim. O mənada ki, nəhayət belə bir məramlı kitabın hazırlanmasına Rza müəllim imza atıb. Düz 10 il öncə Rza müəllim eynilə bu səciyyədə təntənəyə şanslı olduğu halda bu işin reallaşmasına razılıq verməmişdi (Şübhəsiz, bu, Rza müəllimin olduqca təvazökar insan olmasına dayanıqlı bir məsələdir və yazımızda bu təvazökarlığı şərtləndirən məqamlara toxunacağıq). Necə ki, bu onun halal haqqı idi və sözün əsl mənasında Rza müəllim elə 10 il öncə bu təntənəni qeyd etməyə layiq idi. O zaman Rza müəllim ömrünün 60-cı qışını keçirirdi. Bu məqamda isə o, artıq 70-ci qışını başa vurmaqdadır. Bir sözlə, Rza müəllim indi yaşının daha müdrik çağındadır və görünür elə bu çağda olmasına müqabil nəhayət ki, Rza müəllim belə bir işin həyata keçirilməsinə etiraz etməmişdir.

Əslində Rza müəllim haqqında yazmaq mənə görə çox rahatdır. Çünki 30 ildən bir qədər də artıqdır ki, onu tanıyıram. Bu illər bir-birimizi yaxşı tanımaq üçün həm də bizi bir çox sınaqlardan keçirib. Əvvəldə qeyd etmişdim ki, Rza müəllim çox təvazökar insandır. Əlavə etməliyəm ki, onu səciyyələndirən bu keyfiyyəti onun sadə və səmimi bir insan olmasına dayanıqlıdır. **Yanılmarıq desək ki, səmimiyyət insanın zatından gəlir və insanın nəcib xislətli olduğunu əsaslandırır.** Əlbəttə, doğulduğu mühitin, böyüdüyü şəraitin və əhatə olunduğu çevrənin onun insan kimi formalaşmasına

təsiri olduğunu da qaçırmamalıyıq. Digər tərəfdən etiraf etməliyəm ki, Rza müəllim təvazökar və səmimi olduğu qədər də ciddi adamdır. Bu onun həm məşğul olduğu sahəyə, həm də əhatə olunduğu həmkarlarına münasibətini müəyyənləşdirən prinsipial mövqeyidir. Yəni digər rakursdan baxdıqda Rza müəllim konkret mövqeyi olan ciddi bir elm adamıdır.

Elə bir situativlik qeydə alınmaz ki, Rza müəllim ona müraciət edən şəxsi nigaran saxlasın. Hər nə vasitə ilə olursa-olsun ona yardım etməyə səy göstərəcək. Şübhəsiz, imkan daxilində olanları "öz hesabına" həll edəcək, nüfuz edə bilmədiklərinin isə həlli yollarını aramağa çalışacaq. Hər şey bir qırağa, təkcə bu xüsusiyyəti Rza müəllimin böyük ürək sahibi olduğunu anlamağımıza imkan yaradır.

Rza müəllimin belə bir səciyyəvi xeyirxahlığı da var ki, lazım olan anında yoldaşa kömək əlini uzadır. Əslində bu onunçün mənəvi ölçüdür və təəssüflər olsun ki, belə "ölçü ilə" problemlərə müdaxilə edənlər indi "təkəm-seyrək"dir. (Gəlin belə insanları saygı və diqqətdən kənarda qoymayaq!). Elə Rza müəllimlə ilişgəli bu xüsusiyyətinə rəğmən bir təəssüratımı bölüşmək istəyirəm. Elmi işimin müdafiə mərhələsinin başlanmasına lap az vaxt, yəni yarım saat qalırdı. Professor Seyfəddin Qəniyev mövzumla bağlı SMOMPK məcmuəsi ilə tanışlığımın nə durumda olduğunu soruşdu və ardınca vurğuladı ki, bax haa, bu ətrafda sənə sualım ola bilər! Elə Seyfəddin müəllimdən yenicə uzaqlaşmışdım ki, nəzərlərim dəhlizdə gəzişən Rza müəllimi çəkdi. Onun bu mövzuda daha məlumatlı olduğunu bildiyim üçün tez Rza müəllimə yaxınlaşdım. Məlumatın səhihliyini müəyyənləşdirmək üçün ondan yardım istədim. Darıxdırıcı məqam idi və o anda Rza müəllimin məsələyə nə cür

müdaxilə edəcəyinə, doğrusu konsentrə oluna bilmirdim. Çünki əhvalından onun o anda mənə konkret bir şey söyləmək iqtidarında olmadığını anlamışdım. Amma dəhliz boyu gəzişə-gəzişə nəyisə yadına salmağa çalışdığını da sezmişdim. Vəziyyət elə belə də qaldı. Mənə elə gəldi ki, elə belə də qalacaq. İşi belə görüb Rza müəllimdən aralandım. Məsəl var: "Deyir sən saydığını say, gör fələk nə sayır". Sən demə Rza müəllim elə dəhlizdə "var-gəl" edərkən bu işə əlac tapıb. Mən müdafiə otağına istiqamətlənən pilləkənləri qalxmamış (vaxtın darlığına baxmayaraq) heç bilmədim Rza müəllim nə vaxt açarı götürdü, necə seyfi açdı… və onda çevrildim ki, əlində SMOMPK mənə səsləndi: "Atəş gəl. Sən istəyən məlumatı tapmışam". Lazım olan məlumatı yerli-yataqlı ondan alıb müdafiə otağına yollandım. Şübhəsiz, Seyfəddin müəllimin mənə ünvanladığı suala bir təhər cavab tapıb "çulumu sudan çıxara biləcəkdim". Amma deməliyəm ki, Rza müəllimin ekstremal vəziyyətdə, yəni elə məqamında mənə etdiyi bu kiçik xeyirxahlığı müdafiə prosesində böyük dəstək kimi mənim karıma gəldi. 70 yaşlı insanın bir gənc çevikliyi ilə, həm də vaxt itirmədən məsələyə əmcan çəkməsi doğrusu mənə maraqlı gəldi. Və bir daha əmin oldum ki, xeyirxahlıq Rza müəllim üçün ötəri hiss deyil, bu onun xislətindən gəlir, bu onun "alın yazısı"dır. Peşəsinə münasibətinə gəlincə sözsüz ki, burada da Rza müəllim əksər həmkarlarına nümunə ola biləcək davranış və bu yönümlü stereotiplərə yiyələnməsinə rəğmən seçilməkdədir. Bir məqamı ayrıca vurğulamaq istəyirəm ki, özüm də daxil olmaqla (həm də tanışlığım olduğu ətrafı nəzərdə tutmaqla) indi tədqiqatçılar tədqiqatları tələb etsə belə arxivlərdə işləməyə o qədər də əhəmiyyət vermirlər. Əslində bu çox mühüm məsələdir və diqqətdən kənarda qalmamalıdır. Məsələ ondadır ki, Rza

müəllim indiyə qədər bütün araşdırmalarını arxiv çalışmalarına üstünlük verməklə aparmışdır. Uğurlu nəticələr əldə etsə də, deməliyəm ki, bu metodla işləməsi hərdən onun səhhətinə fəsadlar da gətirmişdir. Yaxşı yadımdadır, bir mövsum Rza müəllim arxivdə o müddətdə çalışmışdır ki, tozlu mənbələrdən gözünə infeksiya da düşmüşdü. Həmin ili Rza müəllim uzun müddət gözlərindən müalicə aldı. Hətta mən ona (şübhəsiz səhhətinə görə) daha arxivə getməməyi tövsiyə etdim. Maraqlıdır ki, səhhəti yaxşılaşan kimi, o, yenidən bu metodla işləməyə davam etdi. Sözümün canı odur ki, Rza müəllim araşdırmalarına canını qoyur. Yeri düşəndə bu iş üçün sağlamlığını belə əsirgəmir. Bu da onun göstəricisidir ki, Rza müəllim Folklor işinə haqq işi, milli mücadilə işi olaraq yanaşır. Heç şübhəsiz, belə bir mövqeyi amalca onu özündən əvvəl bu iş uğrunda mücadilə aparmış sələflərinə yaxınlaşdıra bilmişdir.

Ümumilikdə götürsək, Rza müəllimin şəxsiyyətində elə keyfiyyətlər təmərküzləşmişdir ki, buna müqabil müasiri olduğu həmkarları ona "əlahiddə" hörmət bəsləyirlər. Dediklərimə sadəcə onu əlavə edə bilərəm ki, bunu özlərinə örnək bilənlər qoy özləri nə zamansa belə bir örnəyə çevrilməyi bacarsınlar.

Rza müəllimə nə arzulaya bilərəm?!

Birmənalı olaraq ömrünün bu çağında ona ilk növbədə cansağlığı arzulayıram! Qoy salamat və sağlam qalsın ki, Rza müəllim xeyirxah işlərini də davam etdirə bilsin. Rza müəllim, 70 yaşınız mübarək! 71-iniz xeyirli gəlsin! 80-i, 90-ı… və ardınca... Tanrı sizə nə qədər illər bəxş edəcəksə o illəri də beləcə, yəni nikbin, gümrah və əminamanlıq şəraitində qarşılayıb, yola salasınız. Bu minvalla, yenicə qovuşduğunuz "Yubiley ili"niz mübarək!

***19 fevral 2015***

# YUBİLEY TƏDBİRİNDƏN GÖRÜNTÜLƏR






2014



































## BAŞLIQLAR

Tərtibçidən ............................................................... 3
Filologiya üzrə fəlsəfə doktoru, dosent Rza Xəlilovun 70 illiyinə həsr olunmuş yubiley tədbiri .................... 4
Paşa Əfəndiyev. Rza müəllim .................................. 29
Mahmud Allahmanlı. Folklorşünas Rza Xəlilov....... 33
Ramil Əliyev. Əziz dostum Rzaya ............................ 42
Seyfəddin Rzasoy. Dünyamızı bəzəyən insan............44
Ağaverdi Xəlilov. Dəyərli ziyalı və gözəl insan ....... 46
İslam Sadıq. Düşündüklərimiz düz çıxdı................... 50
Tahir Orucov. Gözəl alim, qayğıkeş insan ................ 52
Mətanət Yaqubqızı. Xeyirxahlıq mücəssəməsi ......... 58
Qalib Sayılov. İnsanin sərvəti öz şəxsiyyəti olmalıdı .60
Şakir Albalıyev. Ağırçəkili sayılıb-seçilən kişi......... 63
Tacir Səmimi. Rza müəllim....................................... 67
Ülkər Əliyeva. Dəyərli insan..................................... 68
Atəş Əhmədli. Yubiley yaşın mübarək ..................... 69
Yubiley tədbirindən görüntülər ................................. 73

**Rza Xəlilov- 70.**
Bakı, “Elm və təhsil”, 2015.

Nəşriyyat direktoru:
**Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Sönməz Abbaslı**

Kompyuterdə yığdı:
**Ruhəngiz Əlihüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60X84 1/32
Mətbəə kağızı:№1
Həcmi: 84 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Redaksiya-nəşr bölməsində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.